Əhli-beyt ilə səhabələr arasında olan isti münasibətlər silsiləsindən (6)

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Əhli-beyt və səhabələr
# sevgi və qohumluq əlaqələri

Əhli-beyt ilə səhabələr arasında olan isti münasibətə aid tutarlı dəlilləri özündə əks etdirən qeydlər

Hazırlayan:

Əli ibn Həməd ət-Təmimi
"əl-Məbərra" xeyriyyə fondunun nəzdində olan
tədqiqatlar və araşdırmalar mərkəzinin rəis müavini

Altıncı nəşr 1436 h – 2015 m

قَالَ اللهُ تعالى:

﴿مُّحَمَّدٞ رَّسُولُ ٱللَّهِۚ وَٱلَّذِينَ مَعَهُۥٓ
أَشِدَّآءُ عَلَى ٱلۡكُفَّارِ رُحَمَآءُ بَيۡنَهُمۡۖ﴾

Uca Allah عَزَّ وَجَلَّ buyurur:
"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər."

# Mündəricat


Müqəddimə ........ 5

Peyğəmbərlə ﷺ raşidi xəlifələr arasındakı qohumluq əlaqələri ........ 6

Bəşəriyyətin ən xeyirlisinin ﷺ qızları ........ 8

Əli ibn Əbu Talibin Fatimeyi Zəhra ilə mübarək evliliyi ........ 10

Əlinin və onun oğullarının sevdiyi adlar ........ 12

Peyğəmbərin ﷺ ailəsi ilə əs-Siddiqin ailəsi arasındakı qohumluq əlaqələri ........ 14

Əbu Bəkr əs-Siddiq məni iki dəfə dünyaya gətirmişdir ........ 16

İmam Cəfər əs-Sadiq ........ 18

Peyğəmbərin ﷺ ailəsi ilə Ömər ibn əl-Xattabın ailəsi arasındakı qohumluq əlaqələri ........ 20

Mən iki xəlifənin oğluyam ........ 22

Osman peyğəmbər evində ........ 24

Həsən ibn Əli ........ 26

Hüseyn ibn Əli ........ 28

Peyğəmbərin ﷺ ailəsi ilə Osmanın ailəsi arasındakı qohumluq əlaqələri ........ 30

Peyğəmbərin ﷺ ailəsi ilə əmilərinin oğullarının ailəsi arasındakı qohumluq əlaqələri ........ 32

Zubeyr peyğəmbər evində ........ 34

Əlinin ailəsi ilə Zubeyrin ailəsi arasındakı qohumluq əlaqələri ........ 36

Əlinin ailəsi ilə Talhənin ailəsi arasındakı qohumluq əlaqələri ........ 38

Hüseyn ibn Əli ibn Əbu Talibin səhabələrin övladlarından olan kürəkənləri ........ 40

Muhəmməd əl-Baqir ........ 42

Dörd raşidi xəlifənin, üstəlik, Zubeyrin və Talhənin qız nəvəsi Həfsa bint Muhəmməd (əd-Dibac) ........ 44

Möminlərin anaları – ən hörmətli peyğəmbərin ﷺ zövcələri ........ 46

Cənnətlə müjdələnmiş on nəfər ........ 48

Raşidi xəlifələrin xilafətinin axır dönəminədək baş vermiş, İslam dövlətinin fəthləri ........ 50

İki şərəfi özündə cəm edən – həm qohum, həm də, səhabə olmuş kimsələr ........ 52

بسم الله الرحمن الرحيم

# Müqəddimə

Bütün həmdlər, İslam dinini digər dinlərin hamısından üstün etmək üçün Öz rəsulunu ﷺ doğru yol göstəricisi və haqq din ilə göndərən Allaha məxsusdur! Şahid olaraq Allah yetər. İnsanların hamısını həm müjdələmək, həm də, qorxutmaq üçün göndərilmiş Peyğəmbərə ﷺ, habelə, onun ﷺ sünnəsini təbliğ etmiş pak və itaətkar ailəsinə və səhabələrinə bol-bol salavat və salam olsun!

Sonrasına gəlincə...

Kitabdakı bu iyirmi dörd qeyd, ən uca səsilə hər kəsi səsləyib deyir ki, əhli-beyt və səhabələr arasında sevgi və qohumluq əlaqələri olmuşdur. Bu qeydlərdə gün kimi aydın sübutlar və əsli olan dəlillər var ki, əhli-beyt ilə səhabələr Uca Allahın: "öz aralarında mərhəmətlidirlər" ayəsində buyurduğu kimi mehriban olmuşlar. Onlar peyğəmbərlərin ən xeyirlisinə yaxın olmaqla ən xeyirli əsrdə yaşamış insanlar olmuşlar. Peyğəmbər ﷺ onlara ədəb-əxlaq və (İslam) elmini öyrətmiş, onlar da, öz növbəsində insanlara, təbliğatdan çox, öz zahiri davranışları və əxlaqları ilə nümunəvi müəllimlər olmuşlar.

Bu kitabda biz, beş və ya altı nəsil dönəmində övladlar və nəvələr arasında olan ictimai münasibətin, sevginin və mərhəmətin necə əzəmətli olduğuna şahidlik edən əllidən çox qohumluq əlaqəsini təqdim edirik.

"əl-Məbərra" xeyriyyə fondu mövzuya dair məlumatların tez bir zamanda, həm də, müxtəsər və dəqiq şəkildə adamın zehninə yerləşdirməsinin əhəmiyyətli olduğunu nəzərə alaraq, əhli-beyt ilə səhabələr arasında olduqca isti münasibət olduğunu bəyan etmək üçün bu üsluba etimad etmişdir.

Bu müqəddimədə biz bu qohumluq əlaqələri ilə bağlı bəzi mühüm məsələlərə işarə etmək istəyirik. Bunlar da aşağıdakılardır:

1. Bu kitabda qeyd edilmiş qohumluq əlaqələqi və adlar hər iki mənbədə - həm sünnə, həm də şiə mənbələrində eyni ilə nəql edilmişdir.

2. Tarixə, tərcümeyi-hallara və həyat-yollarına aid yazılmış kitablarda əhli-beyt ilə səhabələr arasında olan izdivaclar barədə dərindən araşdırılmış yox, sadəcə üzdə olan məlumatlar zikr edilir. Ola bilsin ki, bu kitablarda zikr edilməyən və ya əsasından bizə gəlib çatmayan qohumluq əlaqələri də mövcud olub.

3. İzdivaca girmək və qohumluq əlaqəsi qurmaq kimi işlərə önəm vermək ərəb mədəniyyətində dərin kök atmışdı. Belə ki, ərəblər yalnız əsl-nəcabəti şərəfli və ehtirama layiq olan kimsəyə qız verər və yalnız beləsindən qız alardılar. Sonra İslam dini gəldi və bu anlayışı bir qədər də izzətləndirdi. Sadəcə olaraq o, təqvanı evlənmək üçün ilk meyar qəbul etdi. Əsil-nəsəbin saflığını qorumaq İslamın təməlindən gələn bir anlayışdır və o, hazırki günümüzədək üstünlük təşkil etməkdədir.

4. Xüsusi adlar seçmək təkcə müsəlmanala məxsus deyil, bütün dünya ictimaiyyətinə aiddir. Belə ki, dünya xalqları öz övladlarına yalnız özlərinə yaxın olan rəmzlərə və ya ictimai mühitə uyğun adlar qoyurlar.

5. Haşim oğulları yalnız din və nəsəb baxımından özlərinə tay olanlara qız verərdilər. Hətta hakimlər haşimilərin özlərinə tay olmayan birisi ilə bağladığı nikahı ləğv etmək üçün müdaxilə edərdilər. Buna dair tarixdə neçə-neçə misallar vardır.

Bu kitabla insanlara fayda vermək və müsəlmanların qəlblərini haqq üzərində birləşdirmək Allaha aiddır.

Əli ibn Həməd ət-Təmimi
22 cumadəl-əvvəl 1429 h
27 may 2008 m

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Peyğəmbərlə ﷺ raşidi xəlifələr رضي الله عنهم arasındakı qohumluq əlaqələri




Peyğəmbər ﷺ demişdir: "Sizə mənim yolumu və doğru yol göstərən raşidi xəlifələrin yolunu tutub getməyi əmr edirəm."

Hədis səhihdir. Dörd "Sunən" kitabında və Əhmədin "Musnəd" əsərində rəvayət edilmişdir.

## Birinci qeyd

## Peyğəmbərlə ﷺ raşidi xəlifələr رضي الله عنهم arasındakı qohumluq əlaqələri

Bu qeyd Peyğəmbərlə ﷺ dörd raşidi xəlifənin رضي الله عنهم arasındakı ictimai əlaqəni təqdim edir. Kişilərdən İslamı ilk əvvəl qəbul etmiş Əbu Bəkr əs-Siddiq ﷺ öz qızı Aişəni رضي الله عنها Peyğəmbərə ﷺ ərə vermişdir. O, Peyğəmbərin ﷺ zövcələrinin üçüncüsü, həm də, onların arasında yeganə bakirə və yaşı hamısından az olanı sayılır. Lakin azyaşlı olmasına baxmayaraq, o, qadınların hamısından çox hədis rəvayət etmişdir. Bir çox hallarda səhabələr fitva almaq üçün ona müraciət edərdilər.

Hicrətin 57-ci ilinədə vəfat etmiş Aişə anamız رضي الله عنها Peyğəmbər ﷺ vəfat edənədək, düz 9 il onun zövcəsi olmuşdur.

Aişə رضي الله عنها Peyğəmbərin ﷺ ömürünün sonunadək onun zövcəsi olmuş, Peyğəmbər ﷺ onun hücrəsində və onun növbəsi olan gündə vəfat etmiş, üstəlik, elə orada da, dəfn edilmişdir. Bütün bunlar onun Peyğəmbərə ﷺ çox yaxın olmasına və Peyğəmbərin ﷺ ondan razı qalmasına açıq-aydın işarədir.

Beləcə, Əbu Bəkr əs-Siddiq رضي الله عنه möhtərəm Peyğəmbərlə ﷺ qohum olmuşdur. Hətta vəfatından sonra belə, onunla yoldaşlığı davam etmişdir. Belə ki, o, Peyğəmbərin ﷺ yanında dəfn edilmişdir. Allah təmiz və pak olan Peyğəmbərin ﷺ yanında haqq yolda olmayan birisinin dəfn olunmasına icazə verməzdi.

Ömər əl-Faruqa رضي الله عنه gəlincə, Peyğəmbər ﷺ onun qızı, çoxlu oruc tutan və gecə namazlarını qılan Həfsa رضي الله عنها ilə hicrətin 3-cü ilində evlənmiş və Peyğəmbər ﷺ vəfat edənədək Həfsa onun zövcəsi olmuşdur. Həfsa رضي الله عنها Peyğəmbərin ﷺ zövcələrindən və ümmətin Quranı mühafizə edən etibarlı qadını hesab edilir. Belə ki, Əbu Bəkr رضي الله عنه və səhabələr Quran ayələri yazılmış lövhələri bir yerə topladıqdan sonra onu saxlamağı Həfsaya رضي الله عنها həvalə etmişlər.

Ömər əl-Faruq رضي الله عنه İslamın əvvəlindən indiyədək, hətta, insanlar diriləcəyi günədək Peyğəmbərə ﷺ yoldaş olacaq. Belə ki, o, şərəfli hücrədə Peyğəmbərin ﷺ yanında dəfn edilmişdir. Bu da gün kimi aydın şəkildə (onların arasındakı) isti münasibətə dəlalət edir.

Növbəti qeydlərdə Osmanın رضي الله عنه və Əlinin رضي الله عنه Peyğəmbərlə ﷺ ictimai əlaqəsi barədə söhbət açılacaq.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Bəşəriyyətin ən xeyirlisi Muhəmmədin ﷺ qızları

## Zeynəb

- Peyğəmbərin ﷺ ən böyük qızıdır.
- Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il qabaq doğulmuşdur.
- Xalası oğlu Əbul-As ibn ər-Rəbi müsəlman olmamışdan əvvəl onunla evlənmişdir.
- Peyğəmbərin ﷺ sağlığında ikən, hicrətin 8-ci ilində vəfat etmişdir.
- Zeynəb Mədinəyə hicrət edərkən qureyş müşrikləri onu dəvənin belindən yerə salmış və bu səbəbdən onun bətnindəki uşağı tələf olmuşdur.
- Əbul-Asdan Əli adlı oğlu (uşaq ikən vəfat etmiş) və Umamə adlı qızı olmuşdur. Fatimənin vəfatından sonra Əli Umamə ilə evlənmişdir.

## Fatimə

- Ən hörmətli qadınlardan biridir.
- Peyğəmbərin ﷺ qızlarının ən kiçiyidir.
- Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən bir il əvvəl doğulmuşdur.
- Əli hicrətin 2-ci ilində onunla evlənmişdir.
- Hicrətin 11-ci ilində, ramazan ayında vəfat etmişdir.

Əlidən, Cənnət cavanlarının hörmətlilərindən sayılan Həsən və Hüseyn adlı oğlanları, habelə, Zeynəb və Ummu Gülsüm adlı qızları olmuşdur.

“Ey Peyğəmbər! Zövcələrinə, **qızlarına** və möminlərin qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər.”

“əl-Əhzab” surəsi, 59-cu ayə

Onların anası dünyanın ən fəzilətli qadınlarından biri və möminlərin anası Xədicə bint Xuveyliddir

Bunların hamısı mömin mühacir qızlardır Allah onların hamısından razı qalsın

## Ummu Gülsüm

- Peyğəmbərin ﷺ qızlarının üçüncüsüdür.
- Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən əvvəl, Ruqayyədən sonra doğulmuşdur.
- Bacısı Ruqayyənin vəfatından sonra, Osman ibn Affan onunla evlənmişdir. Elə buna görə də, Osmana zun-Nureyn (iki nurlu) ləqəbi verilmişdir.
- Ummu Gülsüm Peyğəmbərin ﷺ sağlığında, hicrətin 9-cu ilində, şaban ayında vəfat etmişdir.
- Övladı olmamışdır.

## Ruqayyə

- Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən yeddi il qabaq doğulmuşdur.
- Əri Osman ibn Affanla birlikdə Həbəşistana hicrət etmişdir.
- Ölümündən qabaq məxmərək xəstəliyinə tutulmuş və müsəlmanlar Bədr döyüşündə ikən Mədinədə vəfat etmişdir.
- Osman ibn Affandan Abdullah adlı oğlu olmuş və bu uşaq hicrətin 6-cı ilində vəfat etmişdir.

(Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər.


1. İbn Hişam, “əs-Sira ən-Nəbəviyyə”, 2/9
2. əz-Zəhəbi, “Tarix əl-İslam”, 1/13
3. İbn Əsakir, “Tarix Diməşq”, 3/125
4. İbn Kəsir, “əl-Bidayə vən-Nihayə”, 2/294
5. İbn Həcər, “əl-İsabə”, 11181-ci tərcümeyi-hal
6. İbn Abdulbərr, “əl-İstiyab”, 1/17
7. İbn əl-Əsir, “Əsəd əl-Ğabə”, 1/10
8. əs-Saduq, “əl-Xisal”, səh.404
9. ət-Tusi, “Təhzib əl-Əhkam”, 3/333
10. əl-Mazəndərani“Şərh Usul əl-Kafi”, 7/144
11. ət-Tabrisi, “Tac əl-Məvalid”, səh.9
12. İbn Xəşşab, “Tac Məvalid əl-Əimmə”, səh.7
13. İbn Şəhraşub, “Mənaqib ali Əbi Talib”, 3/90
14. əl-Mufid, “əl-Məsail əs-Sərviyyə”, səh.94
15. ən-Namazi əş-Şahrudi, “Mustədrəkat Elm ər-Rical”, 9227-ci, 15860-cı, 9590-cı və 18068-ci tərcümeyi-hallar
16. əl-Mufid, “əl-Muqniə”, səh.333
17. ət-Tusi, “əl-Məbsut”, 4/159
18. ət-Tusi, “Misbah əl-Muctəhid”, səh. 80 və 622
19. əl-Huliy, “Təzkirə əl-Fuqəha”, 2/604
20. əl-Himyəri əl-Qummi, “Qurb əl-İsnad”, səh. 9
21. əl-Xoi, “Mocəm Rical əl-Hədis”, 12/139, 24/208, 19/305 və 15626-cə tərcümeyi-hal
22. əl-Məclisi, “Bihar əl-Ənvar”, 42/95
23. əl-Hurr əl-Amili, “Vəsail əş-Şiyə”, 3/139
24. ət-Tusi, “əl-İstibsar”, səh.485
25. əl-Bəhrani, “əl-Hədaiq ən-Nadira”, 4/85
26. əl-Huliy, “Muntəhə əl-Mətləb”, 1/446
27. ət-Təsturi, “Qamus ər-Rical”, 119-cu, 343-cü, 8-ci və 136-cı tərcümeyi-hallar.

## İkinci qeyd

## Bəşəriyyətin ən xeyirlisinin ﷺ qızları

Bu, "Bəşəriyyətin ən xeyirlisinin ﷺ qızları" adlı qeyddə, ən möhtərəm peyğəmbər və ən əzəmətli rəsul Muhəmmədin ﷺ qızlarının həyat-yolu təqdim edilir. Onların hamısı mömin və mühacir olmuşlar. Anaları Xədicə bint Xuveylid رضي الله عنها də, ən hörmətli qadınlardan biridir.

Bu qızların yaşca ən böyüyü, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il qabaq dünyaya gəlmiş Zeynəbdir رضي الله عنها. (Peyğəmbərin ﷺ əmilərinin oğulları) Abdumənaf oğullarından olan, xalası oğlu Əbul-As ibn ər-Rəbiyə رضي الله عنه ərə getmiş və Əbul-Asdan onun Əli adlı oğlu uşaq ikən vəfat etmiş və Umamə رضي الله عنها adlı qızı olmuşdur. O Umamə ki, xalası Fatimə رضي الله عنها vəfat etdukdən sonra, Əli ibn Əbu Talibə رضي الله عنه ərə getmişdir.

Ən hörmətli qadınlardan biri, reyhan qoxulu Həsən və Hüseynin anası, yəni Fatimeyi Zəhra رضي الله عنها. Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən bir il əvvəl dünyaya gəlmişdir. O, Peyğəmbərin ﷺ qızlarının ən kiçiyi və ən fəzilətlisidir. Hicrətin 2-ci ilində raşidi xəlifə və adil imam Əli ibn Əbu Talibə رضي الله عنه ərə getmişdir. Hicrətin 11-ci ilində, Peyğəmbərin ﷺ vəfatından altı ay sonra vəfat etmişdir.

İki kərə hicrət etmiş Ruqayyə رضي الله عنها. Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən yeddi il qabaq dünyaya gəlmişdir. Əbu Ləhəbin oğlu onu boşadıqdan sonra Osman ibn Affana رضي الله عنه ərə getmiş və əri ilə birlikdə Həbəşistana hicrət etmişdir. Osman ibn Affandan رضي الله عنه Abdullah adlı oğlu olmuş və o, uşaq ikən vəfat etmişdir. Nəhayət, Osmanla رضي الله عنه bərabər Mədinəyə hicrət etmiş və hicrətin 2-ci ilində Bədr döyüşü ərəfəsində Mədinədə vəfat etmişdir.

Ummu Gülsüm رضي الله عنها. Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən əvvəl, Ruqayyədən رضي الله عنها sonra doğulmuşdur. Mədinəyə hicrət etmiş və bacısı Ruqayyənin رضي الله عنها vəfatından sonra, Osman ibn Affana رضي الله عنه ərə getmişdir. Hicrətin 9-cu ilində vəfat etmiş və övladı olmamışdır.

Bu qızların hamısı Peyğəmbərin ﷺ sağlığında ikən vəfat etmişdir. Yalnız Fatimeyi Zəhradan رضي الله عنها başqa. O, Peyğəmbərin ﷺ ölümündən altı ay sonra vəfat etmişdir. Bir qədər əvvəl qeyd etdiyimiz tarixi mənbələrin hamısında xəbər verilir ki, bunlar Peyğəmbərin ﷺ qızlarıdır. Necə ki, Qurani Kərimdə cəm şəklində buyurulur: "qızlarına" (əl-Əhzab, 59). Bu da o deməkdir ki, onların sayı çox olmuşdur. Həmçinin, pak Sünnə və alimlərin yekdil rəyi də, buna dəlalət edir. Əziz oxucu, (yuxarıda) biz sənə bunu təsdiqləyən 27 müxtəlif mənbə göstərdik. Bundan da aydın olur ki, bəzilərinin: "Fatimə رضي الله عنها Peyğəmbərin ﷺ tək qızıdır, digərləri isə ögey qızlarıdır" iddiası doğru olmayan əsassız bir şeydir.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Əli ibn Əbu Talibin ﵁ Fatimeyi ﵂ Zəhra ilə mübarək izdivacı



## Zaman və məkan:

Hicrətin 2-ci ilində, Bədr döyüşündən qayıtdıqdan sonra, Mədinədə.



## Toy məclisi:

Səd ﵁ onun bu məclisi üçün bir qoç kəsmiş, ənsardan da bəzisi bir neçə saa (1 saa=2,40 kg) buğda gətirmişdir.[2]



## Evlilik təklifi:

Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xattab və Səd ibn Muaz ﵁ Əliyə ﵁ məsləhət görmüşlər ki, Fatiməyə ﵂ elçi düşsün.[1]



## Mənzil:

Bunu ona Harisə ibn ən-Nomən əl-Ənsari ﵁ hədiyyə etmişdir.[3] [5]



## Mehr:

Əli ﵁ öz Hütəmiyyə zirehini dörd yüz dirhəmə Osmana ﵁ satmış və nəhayət, o, pulu götürdükdən sonra, Osman ﵁ həmin zirehi ona qaytarmış və: “Bu mənim sənə olan hədiyyəmdir” demişdir. Beləliklə, həm zireh, həm də dirhəmlər Əliyə ﵁ qalmışdır.[4]



## Cehiz tədarükü:

Əbu Bəkr əs-Siddiq, Bilal və Salman əl-Farisi ﵁ bunları Peyğəmbərin ﷺ göstərişi ilə almışlar. Bunlar, qalın yun parçadan hazırlanmış bir döşək, bir neçə dəri yastıq, bir su cürdəyi, gildən qayrılmış bir neçə bardaq, bir xeybər bürüncəyi və bir əl dəyirmanı idi.[4]




[2] İmam Əhməd ibn Hənbəl, “Fədail əs-Səhabə”, 1178-ci hədis




[1] əl-Ərbili, “Kəşf əl-Ğummə”, 1/343




[5] İbn Səd, “ət-Təbəqat əl-Kubra”, 8/329



[4] əl-Məclisi, “Bihar əl-Ənvar”, 43/130




[3] əl-Məclisi, “Bihar əl-Ənvar”, 19/113

## Üçüncü qeyd

### Əli ibn Əbu Talibin رضي الله عنه Fatimeyi رضي الله عنها Zəhra ilə mübarək izdivacı

Bu qeyddə müxtəlif mənbələrdə (qeydin altında yerləşdirilmiş şəkillərdə) göstərilir ki, Əlinin رضي الله عنه Fatimə رضي الله عنها ilə evliliyində səhabələrin başlıca rolu omuşdur. Onları buna təşviq edən, əlbəttə ki, yalnız sevgi və dostluq münasibəti olmuşdur. Dəlilləri təqdim edirik:

1- Əlini رضي الله عنه Fatiməyə رضي الله عنها elçi düşməyə təşviq edən səhabələr bunlardır: Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xattab və Səd ibn Muaz – Allah onların hamısından razı qalsın! Onlar bu təklifi hicrətin 2-ci ilində böyük Bədr döyüşündən sonra etmişlər.

2- Mehri verməyə dəstək olan səhabə Osmandır رضي الله عنه. Belə ki, o, əvvəlcə Əlidən رضي الله عنه Hütəmiyyə zirehini dörd yüz dirhəmə almış, Əli رضي الله عنه dirhəmləri götürdükdən sonra zirehi ona qaytarıb demişdir: “Bu zireh mənim sənə hədiyyəmdir.” Beləcə, o, Əlinin رضي الله عنه hörmətini gözləyərək və onun şənini uca tutaraq, heç bir minnət qoymadan və özünü dartmadan bunu ona hədiyyə etmişdir – Allah onların hər ikisindən razı qalsın!

3- Ənsar bu izdivaca sevindiyindən dolayı, Səd رضي الله عنه gəlib bu toy mərasimi üçün bir qoç kəsdi, bəziləri də, buğda gətirməklə bu xeyirdə iştirak etdilər – Allah onların hamısından razı qalsın!

4- Ənsarın səxavəti bununla bitmədi. Harisə ibn ən-Nomən əl-Ənsari رضي الله عنه Rəsulullahın ﷺ evinin yanında yerləşən evini Əliyə رضي الله عنه və Fatiməyə رضي الله عنها hədiyyə etdi.

5- Axırda da, başda Əbu Bəkr olmaqla səhabələr onların cehizini aldı.

Səhabələrin bu iki gəncə etmədiyi nə kömək qaldı?

Bilirsənmi onları buna təşviq edən nə idi? Bunu etməklə nəyə nail olmaq istəyirdilər?

Yalnız sevgi və dostluq münasibəti, üstəlik, Peyğəmbərə ﷺ və onun ailəsinə vəfalı olmaq.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Əli ibn Əbu Talibin ؓ və onun oğullarının ؓ sevdiyi adlar

## Sevgi və vəfa

Məhz bu iki xislət Əlini ؓ və onun oğlanlarını və onların nəslini – Allah onların hamısından razı qalsın! – öz oğullarına və qızlarına bu adları qoymağa təşviq etmişdir. Belə ki, adam öz ciyarparələrinə nifrət etdiyi kimsələrin və ya düşmənlərinin adlarını qoymaz, əksinə, onlar üçün adların ən fəzilətlisini, əslən ən dəyərlisini, ən münasib gördüyünü və qəlbinə ən yaxın olanını seçər.




Mühüm bir haşiyə: bu şəcərə adların və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir. Odur ki, Əlinin ؓ və onun zürriyyətindən olanların ؓ əksəriyyətinin adları zikr edilməmişdir. Bunların ən məşhurları, Fatimə, Cəfər və Zeynəbdir. Səbəbi də, bunun üçün təyin edilmiş səhifənin darısqal olmasıdır.

səhabələr — övladla ata arasında olan bağlılıq

## Ən mühüm mənbələr və məxəzlər.


- İbn Əsakir, "Tarix Diməşq"
- İbn Səd, "Təbəqat əl-Kubra"
- İbn Həzm, "Cəmhərətu Ənsab əl-Arab"
- əz-Zubeyri ibn Bəkkar, "Nəsəbu Qureyş"
- İbn Ənbə, "Umdə ət-Talib"
- əl-Bəlazuri, "Ənsab əl-Əşraf"
- əl-Yaqubi, "Tarix"
- Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn"
- Abbas əl-Qummi, "Muntəhə əl-Əmal"
- İbn Həbib, "əl-Muhəbbər"
- İbn ət-Təqtəqi, "əl-Əsiyəli"
- əl-Ərbili, "Kəşf əl-Ğummə"
- əl-Mufid, "əl-İrşad"
- əl-Xoi, "Mocəm Rical əl-Hədis"
- ən-Namazi əş-Şahrudi, "Mustədrəkat Elm ər-Rical"

## Dördüncü qeyd

### Əli ﵁ və onun oğullarının ﵃ sevdiyi adlar

Bu mübarək şəcərəyə diqqətlə nəzər yetir!
Əbu Bəkr, Ömər və Osman adlı oğullar Kərbəlada iştirak edib şəhid olmuşlar!
Gəl bu məsələni təhlil edək!

Əbu Bəkr ibn Əli ibn Əbu Talib, onun qardaşı oğlu Əbu Bəkr ibn Həsən ibn Əli ibn Əbu Talib, habelə, Ömər ibn Həsən və Ömər ibn Hüseyn əmiləri Abbas və Osman – hər ikisi Əli ibn Əbu Talibin Ummu Bənin əl-Kulləbiyyədən olan oğullarıdır.

Əli ibn Əbu Talibin ən son vəfat etmiş oğlu Öməri, həmçinin, Əli ibn Hüseynin iki oğlu – Öməri və Osmanı da, yaddan çıxarmamalıyıq.

Bu adqoyma məsələsi altıncı nəsilədək davam etmişdir. Belə ki, Musa əl-Kazım oğlanlarından ikisinə Əbu Bəkr və Ömər adını vermişdir.

Dostluqda və qardaşlıqda sadiq olmuş, mühacirlərə və ənsara dəyər vermiş, onların fəzilətli olduğunu və babaları möhtərəm Rəsulun ﷺ səhabələri olduğunu qəbul etmiş peyğəmbər ailəsi haqqında əlavə məlumat almaq istəyirsənmi?

Sənin üçün əlavə məlumat olaraq bax:
Aişə bint Cəfər əs-Sadiq!
Aişə bint Musa əl-Kazım!
Aişə bint Əli Rida!
Aişə bint əl-Hadi!

Möhtərəm qardaşım, etimad olunan kitabların içində bu cür misli olmayan münasibətlərə və dərin mənalı adlara aid böyük sayda misallar vardır. Bu misallardan sonra sən istəyirsən ki, biz şərqşünasların, siyasətçilərin və onların fikirləri ilə zəhərlənmiş kimsələrin sözlərinə inanaq ki, guya əhli-beyt ilə səhabələr bir-birilərinə ədavət və nifrət bəsləmişlər? Allah qorusun, yox, mən onların müsəlmanlara verdikləri vəsvəsələrdən, etdikləri sehrdən və qurduqları hiylədən uzaqlaşıb Allaha sığınıram.

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

# Peyğəmbərin ﷺ ailəsi ilə əs-Siddiqin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

Uca Allah buyurur: "Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər" (əl-Fəth, 29)
Uca Allah buyurur: "De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm" (əş-Şura, 23).
Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt və səhabələr bir bədən kimi olmuş, övladlarına da, bir-birilərinin adlarını qoymuşlar. Baş vermiş fitnələrdən əvvəl də, sonra da, onların arasında qohumluq əlaqələri davam etmişdir. Biz bu fitnələrdən sonrakı əlaqələrin qurulduğu tarixləri aşağıda qeyd etmişik. Bu da öz növbəsində əhli-beyt ilə səhabələr, tabiinlər və onlardan sonra gələnlər arasında isti münasibətin davam etdiyini təsdiq edir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

- Abdulmuttəlib
  - Abdullah
    - 1A Muhəmməd ﷺ — Aişə ilə hicrətdən sonra evlənmiş və ömrünün sonunadək onunla evli qalmışdır
  - Əbu Talib
    - Cəfər
      - Abdullah
        - 3A İshaq* — Kərbəla hadisəsindən sonra Ummu Həkim ilə evlənmişdir
    - Əli ibn Əbu Talib
      - 2A Həsən əs-Sibt* — hicrətin 49-cu ilindən qabaq Həfsa ilə evlənmişdir
        - Həsən əl-Musənnə
          - Abdullah əl-Məhd
            - 5A Musa əl-Covn* — hicrətin 154-ci ilindən qabaq Ummu Sələmə ilə evlənmişdir
      - Hüseyn əş-Şəhid
        - Əli Zeynulabidin
          - 4A Muhəmməd əl-Baqir* — hicrətin 80-ci ilindən qabaq Ummu Fərvə ilə evlənmişdir
          - Abdullah
            - 6A İshaq* — hicri təqvimi ilə ikinci əsrin ortalarında Gülsüm ilə evlənmişdir

- Əbu Bəkr əs-Siddiq رضي الله عنه
  - Abdurrəhman
    - Abdullah
      - Talhə
        - Muhəmməd
          - 5B Ummu Sələmə
    - 2B Həfsa
  - Muhəmməd
    - əl-Qasim əl-Fəqih
      - 3B Ummu Həkim
      - 4B Ummu Fərvə
      - Abdurrəhman
        - İsmail
          - 6B Gülsüm
  - 1B Möminlərin anası Aişə

Bu altı əlaqəni təhlil edən möhtərəm oxucu görür ki, bu mübarək qohumluq əlaqələrində qeyd olunan kişilərin hamısı pak əhli-beytdən, qadınların da hamısı əs-Siddiqin ailəsindəndir. Bu da, açıq-aydın şəkildə zəmanət verərək onların hamısının arasında olan isti münasibətə dəlalət edir. Xüsusilə qeyd etmək lazımdır ki, bu izdivacların çoxu o fitnələrdən sonra həyata keçirilmişdir.

## İslam tarixində baş vermiş mühüm hadisələr:

1. Rəsulullahın ﷺ vəfatı: hicrətin 11-ci ilində
2. Səqifə hadisəsi: hicrətin 11-ci ilində
3. Cəməl hadisəsi: hicrətin 36-cı ilində, cumadəl-axirə ayında
4. Siffin hadisəsi: hicrətin 37-ci ilində, səfər ayında
5. Əlinin رضي الله عنه şəhid edilməsi: hicrətin 40-cı ilində, ramazan ayında
6. Həsən ibn Əlinin رضي الله عنهما vəfatı: hicrətin 49-cu ilində
7. Hüseyn ibn Əlinin رضي الله عنهما şəhid edilməsi: hicrətin 61-ci ilində, muhərrəm ayında, Kərbəlada

Səhifədə qoyulan (1A) və (1B) kimi rəqəmlərin mənası: bu mübarək şəcərələrdə göstərilən altı qohumluq əlaqəsindən hər birini belə rəqəmləmişik ki, bu izahedici cədvəldəki o rəqəmlər sayəsində kimin kiminlə qohum olduğu asan şəkildə görünsün. Belə ki, hər bir rəqəmin önünə (A) hərfi qoymaqla ərə, (B) hərfi qoymaqla da, onun zövcəsinə işarə edilir ki, onların arasında olan əlaqə, bu izahedici cədvəlin qatlarında aydın başa düşülsün.

* Şeyx əl-Mufid (vəfatı: hicri 413) "əl-İrşad" əsərində (səh.270), Muhəmməd əl-Əlami əl-Hairi "Tərəcim Əlam ən-Nisa", əsərində (səh.278), İbn Anbə (vəfatı: hicri 828) "Umdə ət-Talib" əsərində (səh.225), İbn Təqtəqi (vəfatı: hicri 709) "əl-Əsiyəli" əsərində (səh.149) və Musab əz-Zubeyri (vəfatı: hicri 236) "Nəsəbu Qureyş" əsərində bu möhtərəm qohumluq əlaqələrinin doğruluğunu təsdiqləmişlər.

## Beşinci qeyd

## Peyğəmbərin ﷺ ailəsi ilə əs-Siddiqin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri

Bu qeyd Peyğəmbərin ﷺ ailəsi ilə əs-Siddiqin رضي الله عنه ailəsi arasındakı altı qohumluq əlaqəsini aşkar edir.

Bunların ən şərəflisi hicrətdən bir il qabaq Muhəmmədin ﷺ sədaqətli Aişə رضي الله عنها ilə nikah bağlaması, sonra hicrətin 2-ci ilində evlənməsi və Peyğəmbərin ﷺ həyat yoldaşı olmasıdır. Məgər onun vəfatından sonra bu əlaqə sona yetdimi? Əlbəttə ki, yox! Belə ki, Peyğəmbərin ﷺ reyhan qoxulu nəvəsi Həsən – bəzi mənbələrdəki rəvayətlərə görə Hüseyn – Əbu Bəkrin nəvəsi – Həfsa bint Abdurrəhman ilə evlənmişdir (əl-Bəlazuri, "Ənsab əl-Əşraf", 1/381; İbn Həbib, "əl-Muhəbbər", səh.448).

Sonra Həsənin nəvələrindən biri Musa əl-Covn ibn Abdullah əl-Məhd ibn Həsən əl-Musənnə Ummu Sələmə bint Muhəmməd ibn Talhə ibn Abdullah ibn Abdurrəhman ibn Əbu Bəkr ilə evlənmişdir (əl-Bəlazuri, "Ənsab əl-Əşraf", 1/407; əz-Zubeyri, "Nəsəbu Qureyş", 1/20; əl-Fəxri, "Ənsab ət-Talibiyyeyn", 1/36; İbn Anbə "Umdə ət-Talib", səh.113).

Hüseynin əhli-beytinə gəlincə, (Muhəmməd) əl-Baqir təqribən hicrətin 80-ci ilində Ummu Fərvə bint əl-Qasim ibn Muhəmməd ilə evlənmiş və ondan onun Cəfər əs-Sadiq adlı oğlu dünyaya gəlmişdir (Bütün mənbələr bunu təsdiq edir).

Həmçinin, İshaq ibn Abdullah ibn Muhəmməd ibn Əli ibn Hüseyn, Gülsüm bint İsmail ibn Abdurrəhman ibn əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr ilə evlənmişdir (Nəsəbu Qureyş, 1/24).

Cəfər ət-Təyyarın əhli-beytinə gəlincə, İshaq ibn Abdullah ibn Cəfər ibn Əbu Talib, (Cəfər əs-Sadiqin anası) Ummu Fərvənin bacısı Ummu Həkim bint əl-Qasim bin Muhəmməd ibn Əbu Bəkr ilə evlənmişdir. Demək, Ummu Həkim Cəfər əs-Sadiqin xalasıdır (əş-Şəcərə əl-Mubarəkə, əl-Fəxri ər-Razi).

Bu qeyddə açıq-aydın görünür ki:

– bu qohumluq əlaqələrinin çoxu Əbu Bəkrin vəfatından sonra qurulmuşdur. Bu qohumluq, heç şübhəsiz ki, ortada siyasi, yaxud iqtisadi və ya başqa bir mövqe olduğuna görə yox, məhz möhtərəm iki ailə arasındakı sevgi və istəyə görə qurulmuşdur.

– qeyddə o da aydın olur ki, qohum olmuş kişilərin hamısı peyğəmbər ailəsindən, qadınlar isə Əbu Bəkrin ailəsindən olmuşdur. Məlumdur ki, kişilər qadınlara elçi düşürlər. Bundan da, aydın görünür ki, bu evlilik təklifi Peyğəmbərin ﷺ əhli-beyti tərəfindən olmuşdur.

– Hərçənd Səqifə, Siffin, Cəməl, Kərbəla və başqa bu kimi müxtəlif hadisələr bəzi şərqşünaslar tərəfindən şişirdilir, lakin o izdivacların bu hadisələrdən sonra da davam etməsi, ümumiyyətlə ümmətin, xüsusilə də əhli-beytin bu ixtilaflara qarışanları bağışladığına dəlildir. Yoxsa ki, ədavətin həcmini böyütmək, habelə, fitnə salmaq və ixtilaflar yaymaq məqsədilə, Peyğəmbərin ﷺ və raşidi xəlifələrin dövrünə aid o qədər aşkar tarixi xətalar uydurulub ki, bunlar İslam ümmətində yalnız nifrət oyadır.

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# İmam Cəfər əs-Sadiqin رضي الله عنه sözü

## ﴿Əbu Bəkr əs-Siddiq رضي الله عنه məni iki dəfə dünyaya gətirmişdir﴾*

Birincisi, imam Cəfər əs-Sadiqin anası Ummu Fərvə bint əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq tərəfindən;❋
İkincisi isə, imam Cəfər əs-Sadiqin nənəsi Əsma bint Abdurrəhman ibn Əbu Bəkr əs-Siddiq tərəfindəndir.❋




Uca Allah buyurur: "Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər" (əl-Fəth, 29). Uca Allah buyurur: "De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm" (əş-Şura, 23).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt və səhabələr bir bədən kimi olmuş, övladlarına da, bir-birilərinin adlarını qoymuşlar. Baş vermiş fitnələrdən əvvəl də, sonra da, onların arasında qohumluq əlaqələri davam etmişdir. Bu da öz növbəsində əhli-beyt ilə səhabələr, tabiinlər və onlardan sonra gələnlər arasında isti münasibətin davam etdiyini təsdiq edir.

❋ İbn Anbə (vəfatı: hicri 828), "Umdə ət-Talib fi Nəsəbi Ali Əbu Talib", səh.345 (Cull əl-Mərifə mətbəəsi); əl-Ərbili (vəfatı: hicri 693), "Kəşf əl-Ğummə fi Mərifəti əl-Əimmə", 2/347 (Dar əl-Ədva mətbəəsi); İbn Təqtəqi (vəfatı: hicri 709), "əl-Əsiyəli fi Ənsab ət-Talibiyyeyn" səh.149 (Mərəşi mətbəəsi); əl-Mizzi (vəfatı: hicri 742), "Təhzib əl-Kəmal", 5/75, 950-ci tərcümeyi-hal; İbn Həcər əl-Əsqəlani (vəfatı: hicri 852), "Təhzib ət-Təhzib"; əz-Zəhəbi, (vəfatı: hicri 748), "əl-Kaşif", 1/295, 798-ci tərcümeyi-hal.

❋ İmam Cəfər əs-Sadiqin bu şəcərəsi bir çox mənbələrdə öz təsdiqini tapmışdır. Bunlardan biri də, əl-Ərbilinin "Kəşf əl-Ğummə" əsəridir, 2/347 (Dar əl-Ədva mətbəəsi – Beyrut - Livan)

İslam tarixində baş vermiş mühüm hadisələr: 1) Rəsulullahın ﷺ vəfatı: hicrətin 11-ci ilində; 2) Səqifə hadisəsi: hicrətin 11-ci ilində; 3) Cəməl hadisəsi: hicrətin 36-cı ilində, cumadəl-axirə ayında; 4) Siffin hadisəsi: hicrətin 37-ci ilində, səfər ayında; 5) Əlinin رضي الله عنه şəhid edilməsi: hicrətin 40-cı ilində, ramazan ayında; 6) Həsən ibn Əlinin رضي الله عنهما vəfatı: hicrətin 49-cu ilində; 7) Hüseyn ibn Əlinin رضي الله عنهما şəhid edilməsi: hicrətin 61-ci ilində, muhərrəm ayında, Kərbəlada

Əhli-beyt və səhabələr .. sevgi və qohumluq əlaqələri

## Altıncı qeyd

## Əbu Bəkr əs-Siddiq رضي الله عنه məni iki dəfə dünyaya gətirmişdir

Gəl sənə heyrətamiz bir şey göstərim!

Sadiq ləqəbi ilə tanınan Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib رضي الله عنه öz ana babası Əbu Bəkr əs-Siddiq رضي الله عنه ilə fəxr edir. Belə ki, onun anası, Mədinənin fəqihi əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiqin qızı Ummu Fərvədir (bu, Cəfərin qəsd etdiyi birinci gəlişdir).

Ummu Fərvənin də anası Əsma bint Abdurrəhman ibn Əbu Bəkr əs-Siddiqdir (bu da, ikinci gəlişidir).

Məgər (Cəfər) əs-Sadiq təqva əhli olmayan bir kimsə ilə fəxr edərdimi?

Bəs (Muhəmməd) əl-Baqiri Ummu Fərvə ilə evlənməyə təşviq edən nə idi?

Əziz oxucu, məgər sən mənimlə bərabər görmürsən ki, bu evlilik Əbu Bəkrin رضي الله عنه vəfatından təqribən yetmiş il sonra olmuşdur!

(Burada) nə siyasi tamahdan, nə də maddi maraqdan söhbət gedə bilər, (əksinə, bu əlaqə) yalnız sevgi, sədaqət və pak nəsil seçimi naminə (qurulmuşdur).

Həqiqətən də, o qadın dünyaya imam gətirmişdir, özü də necə imam: Cəfər əs-Sadiq!

(Cəfər) əs-Sadiqin fəqih və alim kimi tanınmasından əlavə, İmam Muslimin "Səhih"ində və dörd "Sünən" əsərlərində ondan hədislər də, rəvayət edilmişdir.

Necə olmasın?! Axı onun atası əl-Baqir, dayısı da, Mədinənin fəqihi əl-Qasim ibn Muhəmməd olmuş, (Cəfərin) özü də, elm və onun əhli ilə dolu olan, elmin qaynağı sayılan Mədinə şəhərində böyümüş və orada da vəfat etmişdir.

# İmam Cəfər əs-Sadiq

Hədis kitablarında ondan 565-dən çox hədis rəvayət edilmişdir.[17]

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

“Vallahi, biz sadəcə bizi yaratmış və seçmiş Allahın qullarıyıq. Biz nə zərər, nə də fayda verməyə qadirik. Əgər Allah bizə rəhm edərsə, Öz mərhəməti ilə rəhm edər, yox əgər bizə əzab verərsə, günahlarımıza görə verər. Vallahi, bizim nə Allaha qarşı bir dəlilimiz var, nə də Allah tərəfindən əlimizdə bir bəraət.”[1]

### Bəzi ibrətamiz sözləri

“Şahid olun ki, mən də, bir insanam, babam Allahın rəsulu ﷺ olduğu halda, Allah tərəfindən mənə bəraət qazandıracaq bir üzrüm yoxdur. Əgər Ona iatət etsəm, mənə rəhm edər, yox, asi olsam, mənə şiddətli əzab verər”.[7]

“Vallahi, biz sizin soruşduğunuz sualların hamısının cavabını bilmirik. Bizdən də, çox bilənlər var”.[8]

“Yaxşı əməl yalnız üç şeylə tamamlanır: vaxtında yerinə yetirməklə, balaca hesab etməklə və bir də gizli saxlamaqla”.[9]

“Nə təqvadan daha xeyirli azuqə, nə susmaqdan daha gözəl şey, nə cahillikdən daha çox zərər verən azar, nə də ki yalandan daha betər xəstəlik ola bilər”.[10]

### Cəfər əs Sadiqin nəslindən olmuş Aişələr

Aişə bint Cəfər əs-Sadiq.[11]

Aişə bint Musa əl-Kazım ibn Cəfər əs-Sadiq.[12]

Aişə bint Əli Rida ibn Musa əl-Kazım.[13]

Aişə bint Cəfər ibn Musa əl-Kazım.[14]

Aişə bint Əli əl-Hadi ibn Muhəmməd əl-Cəvad.[15]




### Səhabələrə ﷺ olan sevgisi

O demişdir: “Rəsulullahın ﷺ səhabələri on iki min nəfər idi. Onların səkkiz mini Mədinədən, iki mini də Məkkədən olan, qalan iki mini isə kölələkdən azad edilmiş müsəlmanlar idi. Aralarında nə qədəri, nə murciə, nə həruri, nə motəzili, nə də rəy əhli var idi..”.[2]

O, həmçinin, demişdir: “Mən Əlinin mənə şəfaətçilik edəcəyinə ümid bəslədiyim kimi, Əbu Bəkrin də mənə şəfaətçilik edəcəyinə ümid bəsləyirəm. O məni iki kərə dünyaya gətirmişdir”.[3]

O, həmçinin, demişdir: “Heç kişi öz babasını söyərmi?! Əbu Bəkr mənim babamdır. Əgər mən Əbu Bəkri və Öməri özümə dost qəbul etməsəm, üstəlik, onların düşmənlərindən uzaq durmasam, Qiyamət günü Muhəmmədin ﷺ şəfaəti mənə yetişməz”.[4]

Ondan Əbu Bəkr və Ömər haqqında soruşulduqda, demişdir: “Sən məndən, artıq Cənnət meyvələrindən dadmış iki kişi barədə soruşursan”.[5]

O, həmçinin, demişdir: “Əbu Bəkr və Ömərdən uzaq duran kimsədən, Allah da uzaqdır”.[6]

1 əl-Qummi, “Təsdid əl-Usul” (2/76), əl-Məclisi, “Bihar əl-Ənvar” (25/289).
2 əl-Qummi, “əl-Xisal” (2/639-640), əl-Məclisi, “Bihar əl-Ənvar” (22/305).
3 əd-Daraqutni, “Fədail əs-Səhabə” (57), əl-Laləkai, “Şərh Usul əs-Sunnə” (7/138).
4 Əhməd, “Fədail əs-Səhabə” (1/214-215), əd-Daraqutni, “Fədail əs-Səhabə” (56).
5 əd-Daraqutni, “Fədail əs-Səhabə” (96), əz-Zəhəbi, “Siyər Əlam ən-Nubələ” (6/259).
6 Abdullah ibn Əhməd, “əs-Sunnə” (2/557), əd-Daraqutni, “Fədail əs-Səhabə” (87).
7 “Rical əl-Kişşi” (299), əl-Məclisi, “Bihar əl-Ənvar” (25/290).
8 İbn Əbu Xeysəmə, “ət-Tarix əl-Kəbir” (437), əl-Laləkai, “Şərh Usul əl-Etiqad” (8/1485).
9 Əbu Nueym, “Hilyətul Ovliya” (3/198), əl-Beyhəqi, “Şoəb əl-İman” (15/312).
10 Əbu Nueym, “Hilyətul Ovliya” (3/196), əz-Zəhəbi, “Tarix əl-İslam” (7/92).
11 əş-Şəblənci, “Nur əl-Əbsar”, 287 (Cəfər əs-Sadiqin qızı: Aişə), Kəhhalə, “Əlam ən-Nisa” 3/132.
12 əl-Ərbili, “Kəşf əl-Ğummə” 3/29, (Musa əl-Kazımın övladları: Ömər, Həmzə və Aişə).
13 əl-Ərbili, “Kəşf əl-Ğummə” 3/60, (Əli ibn Musanın qızı: Aişə).
14 Əli ibn Muhəmməd “əl-Məcdi fi Ənsab ət-Talibin” 301, (Cəfər ibn Musanın qızı: Aişə).
15 əl-Mufid, “əl-İrşad”, 334, (Əli əl-Hadinin qızı: Aişə).
16 əl-Buxari, “ət-Tarix əl-Kəbir” (2/198), İbn Əbu Hatim, “əl-Cərh vət-Tədil” (2/487), əl-Mizzi, “Təhzib əl-Kəmal” (2/277), əz-Zəhəbi, “Siyər Əlam ən-Nubələ” (6/255), İbn Həcər, “Təhzib ət-Təhzib” (1/310), əz-Zəhəbi, “Tarix əl-İslam” (7/88).
17 Hədis kitablarındakı rəvayətlər bu qaydadadır: “Səhih Muslim” (23), “əl-Muvatta” (10), “Musnəd Əhməd” (36), “Sunən Əbu Davud” (13), “Sunən ən-Nəsai” (44), “Sunən ət-Tirmizi” (20), “Sunən İbn Macə” (19), “Sunən əd-Darimi” (7), ən-Nəsai, “Sunən əl-Kubra” (58), “Səhih İbn Xuzeymə” (35), “Səhih İbn Hibban” (20), “Mustədrək əl-Hakim” (45), əl-Beyhəqi “Sunən əl-Kubra” (179), ət-Təbərani, “əl-Mocəm əl-Kəbir” (56).

## Yeddinci qeyd

## İmam Cəfər əs-Sadiq

Əbu Abdullah Cəfər əs-Sadiq ibn Muhəmməd əl-Baqir ibn Əli Zeynulabidin ibn Hüseyn ibn Əli ibn Əbu Talib – Allah onların hamısından razı qalsın! Böyük imamlardan, üstəlik, əhli-beytin ən hörmətli şəxsiyyətlərindən biridir. Doğru danışdığına görə ona əs-Sadiq ləqəbi verilmişdir. Zikr edildiyindən daha çox tanınmış fəzilət sahibidir.

O, hicrətin səksəninci ilində dünyaya gəlmişdir; bəzi rəvayətlər onun hicrətin səksən üçüncü ilində, ramazan ayının səkkizi, çərşənbə axşamı fəcrdən qabaq dünyaya gəldiyini xəbər verir.

Nəhayət, hicrətin yüz qırx səkkizinci ilində, şəvval ayında Mədinədə vəfat etmiş və Bəqi məzarlığında, atası Muhəmməd əl-Baqirin, babası Əli Zeynulabidinin və babasının əmisi Həsən ibn Əlinin – Allah onların hamısndan razı qalsın! – yanında dəfn edilmişdir.

Allah onun qəbrini necə də hörmətli və şərəfli etmişdir!

Əvvəlki qeyddə biz artıq Cəfər əs-Sadiqin Əbu Bəkr əs-Siddiqlə رضي الله عنه qohumluq əlaqəsini qeyd etmişik. Belə ki, Əbu Bəkr رضي الله عنه onun ana babasıdır.

Yəni, Ummu Fərvə bint əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq – Allah onların hamısından razı qalsın!

Bu qeyddə isə biz, onun, öz əsrinin böyük alimlərindən olmuş bəzi tabiinlərlə olan elmi əlaqəsini, onlardan elm aldığını və onlardan hədis rəvayət etdiyini təqdim edirik ki, elm öyrənməyin və Peyğəmbərdən ﷺ hədis rəvayət etməyin fəzilətli əməl olduğunu, üstəlik, məqam və nəsəb şərəfinin elm öyrənmək və hədis rəvayət etməklə kamilləşdiyini göstərək. Mən bu qeydə onun gözəl sözlərlə səhabələri, ələlxüsus da, Əbu Bəkr və Öməri رضي الله عنهما tərif etməsini əlavə etmişəm. Üstəlik, onun xüsusilə tövhid barədə, habelə, dua və ibadətin yalnız Allaha yönəldilməsi xüsusunda dediyi bəzi hikmətli sözlərini də əlavə etmişəm.

Mən, həmçinin, müxtəlif hədis kitablarında və əsərlərdə ondan 565-dən çox hədis rəvayət edildiyini görmüşəm ki, bu da, Sünnə kitablarının və əsərlərin müəlliflərinin onun rəvayət etdiyi hədislərə, üstəlik, ondan hədislər nəql etməyə diqqət yetirdikilərinə açıq-aydın işarədir.

# Peyğəmbərin ﷺ ailəsi ilə əl-Faruq Ömər ibn əl-Xattabın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu




رضي الله عنه səhabə; رضي الله عنها qadın səhabə (deməkdir); rəqəmi, forması, rəmzi və rəngi bir-birinə uyğun gələnlər, bu iki möhtərəm şəxsiyyətin – Peyğəmbərin ﷺ ailəsi və Ömər رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqəsinin olduğuna dəlalət edir.

**(Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər**

- İbn Qutеybə, "əl-Məarif", 232
- İbn Səd, "ət-Təbəqat əl-Kubra", 2/332
- əl-Hurr əl-Amili, "Vəsail əş-Şiyə", 20/240
- əz-Zubeyri, "Nəsəbu Qureyş", 25
- İbn Anbə, "Umdə ət-Talib", 344
- əl-Bəlazuri, "Ənsab əl-Əşraf", 1/474
- əl-Huliy, "Muxtələf əş-Şiyə", 2/308
- ət-Tusi, "əl-Məbsut", 4/270
- İbn ət-Təqtəqi, "əl-Əsiyəli", 58
- əl-Məclisi, "Bihar əl-Ənvar", 44/168, 45/329

**Mühüm bir haşiyə: bu şəcərə qohumluq əlaqələrinin və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir.**

Uca Allah buyurur: "Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər" (əl-Fəth, 29).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt ilə səhabələr, həm də, onlardan sonra gəlmiş onların zürriyyətləri arasında isti münasibət davam etmişdir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

## Səkkizinci qeyd

## Peyğəmbərin ﷺ ailəsi ilə Ömər ibn əl-Xattabın ﵁ ailəsi arasındakı qohumluq əlaqələri

İslamda olan şəxsiyyətlərin tərcümeyi-hallarından və nəsəblərindən bəhs edən kitablar bizə, Peyğəmbərin ﷺ ailəsi ilə Ömər ibn əl-Xattabın ﵁ ailəsi arasında qohumluq əlaqələrinin olduğunu xəbər verir. Bu əlaqələrin ən məşhuru və ən əzəmətlisi Peyğəmbərin ﷺ Həfsa ﵂ ilə evlənməsi və Peyğəmbər ﷺ vəfat edənədək ona həyat yoldaşı olmasıdır. Bu mübarək evlilik hicrətin 3-cü ilində, Həfsanın ﵂ yoldaşı Bədr döyüşündə şəhid olduqdan sonra baş tutmuşdur.

Bu qohumluğun ikincisi, Ömər ibn əl-Xattab ilə Peyğəmbərin ﷺ nəvəsi, Əlinin Fatimeyi Zəhradan olan qızı Ummu Gülsüm – Allah onların hamısından razı qalsın! – ilə olan evliliyidir. Ummu Gülsüm Peyğəmbərin ﷺ sağlığında ikən dünyaya gəlmiş və nəhayət, hicrətin 20-ci ilindən qabaq Ömərə ﵁ ərə getmişdir. ("Mən iki xəlifənin oğluyam" adlı qeydə bax.)

Ummu Gülsümün atası Əli ibn Əbu Talib ﵁ şəhid edildikdə, o demişdir: "Sübh namazının məndə nə işi var?"

Ummu Gülsüm demək istəyir ki, həyat yoldaşı Ömər ﵁ sübh namazında məcusi Əbu Lulunun əli ilə, həmçinin, atası Əli ﵁ də, sübh namazında, fasiq Abdurrəhman ibn Mulcəmin əli ilə şəhid edilmişdir. Allah istəmişdir ki, Ummu Gülsümün həm özü, həm də, oğlu Zeyd ibn Ömər – ikisi də eyni vaxtda – sübh namazında vəfat etsin. Vəziyyət o yerə gəlib çatmışdı ki, varislər kimdən kimə miras qaldığını ayırd edə bilməmişdilər (ət-Təbətəbai, "Riyad əl-Məsail", 12/664, ən-Nəraqi, "Mustənəd əş-Şiyə", 19/452, Tarix Diməşq, Əli ibn Əbu Talibin ﵁ tərcümeyi-halı).

Ummu Gülsüm Ömər ibn əl-Xattab ﵁ şəhid edildikdən sonra Auf ibn Cəfər ibn Əbu Talibə ərə getmiş, o, vəfat etdikdən sonra onun qardaşı Muhəmmədə ərə getmiş, o da vəfat etdikdən sonra onun qardaşı Abdullah ibn Cəfərə ərə getmişdir. Nəhayət, o, Abdullahın evində vəfat etmişdir. Ummu Gülsüm belə deyərmiş: "Mən Əsma bint Əmisdən utanıram. Onun iki övladı mənim yanımda vəfat edib. Qorxuram üçüncüsü də mənim yanımda vəfat etsin." Beləliklə o, Abdullahın evində vəfat etmiş və onların heç birindən övladı olmamışdır (Bu məlumatı İbn Həcər "əl-İsabə" əsərində, Ummu Gülsümün tərcümeyi-halında qeyd etmişdir).

Bu qohumluğun üçüncüsünə gəlincə, o, beşinci nəsildə, yəni kötükcələr – Həsən ibn Əli ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib ilə Ömərin ﵁ kötükcəsi Cuveyriya bint Xalid ibn Əbu Bəkr ibn Abdullah ibn Ömər arasında həyata keçirilmiş, beləliklə də, onlar babaları arasında sevgi və qardaşlıq olduğunu bir daha sübut etmişlər.

### Zeyd ibn Ömər ibn əl-Xattab رحمه الله demişdir:

# Mən iki xəlifənin oğluyam

Dünyanın ən fəzilətli qadınlarından biri
**Fatimeyi Zəhra** رضي الله عنها

onunla hicrətin 2-ci ilində evlənmişdir

Raşidi Xəlifə
**Əli ibn Əbu Talib** رضي الله عنه

Raşidi xəlifə
**Ömər ibn əl-Xattab** رضي الله عنه

**Ummu Gülsüm** رضي الله عنها

onunla hicrətin 20-ci ilindən qabaq evlənmişdir

**Zeyd**

O və anası Ummu Gülsüm رضي الله عنها
təqribən hicrətin 45-ci ilində,
eyni saatda vəfat etmişlər

---

*Uca Allah buyurur: “Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər” (əl-Fəth, 29).*

*İslam mənbələri bu qohumluq əlaqəsinə şahidlik etmək və bu haqda xəbər verməklə, Ömər ibn əl-Xattab رضي الله عنه ilə Əli ibn Əbu Talib رضي الله عنه arasında isti münasibət olduğunu sübuta yetirmişdir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.*

---

Bu qohumluq əlaqəsinə dair ən mühüm məxəzlər


- İbn ət-Təqtəqi, “əl-Əsiyəli”, səh.58
- əl-Məclisi, “Bihar əl-Ənvar”, 78/382
- İbn Kəsir “əl-Bidayə vən-Nihayə”
- əz-Zəhəbi, “Tarix əl-İslam” 45-ci ildəki hadisələr
- İbn Əsakir, “Tarix Diməşq” Zeyd ibn Ömər ibn əl-Xattabın tərcümeyi-halı
- Ağa Bərzək ət-Tehrani, “əz-Zəria”, 5/184
- Muhsin əl-Əmin, “Əyan əş-Şiyə”, 3/486
- ət-Təbətəbai, “Riyad əl-Məsail”, 12/664
- əz-Zəhəbi, “Siyər Əlam ən-Nubələ”, 3/502
- İbn Səd, “ət-Təbəqat əl-Kubra”, 8/463
- əl-Fadil əl-Hindi, “Kəşf əl-Lisam”, 9/525
- əs-Səbzavi, “Kifayə əl-Əhkam”, 2/879
- əs-Safdi, “əl-Vafi fil-Vəfəyat”, 15/23
- əl-Hurr əl-Amili, “Vəsail əş-Şiyə”, 26/314
- əl-Huliy, “Muxtələf əş-Şiyə”, 2/308

## Doqquzuncu qeyd

### Mən iki xəlifənin oğluyam

Zeyd ibn Ömər ibn əl-Xəttab öz babaları Ömər رضي الله عنه və Əli رضي الله عنه ilə fəxr edib deyərmiş: “Mən iki xəlifənin oğluyam.” Çünki, qeyd etdiyimiz kimi, onun anası Ummu Gülsüm, Əlinin رضي الله عنه Fatimədən رضي الله عنها olan qızıdır.

Hakim mötəbər isnadla Cəfər əs-Sadiqdən, o da atası Muhəmməd əl-Baqirdən rəvayət edir ki, Ömər ibn əl-Xəttab رضي الله عنه Ummu Gülsümlə evlənmək üçün Əliyə رضي الله عنه: “Onu mənə ərə ver!”– dedi, Əli رضي الله عنه də ona: “Mən onu qardaşım Cəfərin oğlu üçün saxlayıram” deyə cavab verdi. Onda Ömər رضي الله عنه dedi: “Onu mənə ərə ver. Vallahi, mən ona baxacağım kimi, heç kəs ona baxa bilməz.” Beləliklə, Əli رضي الله عنه Ummu Gülsümü ona ərə verdi. Bundan sonra Ömər رضي الله عنه mühacirlərin yanına gəlib dedi: “Məni təbrik etmək istəmirsinizmi?!” Onlar soruşdular: “Kiminlə, ey möminlərin əmiri?” O dedi: “Əlinin və Fatimə bint Rəsulullahın ﷺ qızı Ummu Gülsüm ilə. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: “Qiyamət günü bütün nəsəblər və səbəblər qırılacaq. Yalnız mənim nəsəbim və səbəbimdən başqa.” Elə buna görə də, mən istədim ki, mənimlə Rəsulullahın ﷺ arasında həm səbəb, həm də, nəsəb bağlılığı olsun.”

Ummu Gülsümün Ömərdən رضي الله عنه Zeyd adlı oğlu və Ruqayyə adlı qızı olmuşdur. Zeyd bu həyatda çox yaşamamış, həddi-buluğa çatmış gənc ikən dünyasını dəyişmişdir. O, əmiləri Adiy oğullarından olan iki ailə arasında baş vermiş mübahisədə öldürülmüşdür. Belə ki, Zeyd onların arasını düzəltməyə getmiş, lakin tarixi mənbələrə məlum olmayan bir adam tərəfindən başından vurulmuş və çox keçmədən aldığı zərbədən vəfat etmişdir. Anası Ummu Gülsüm da, eyni saatda vəfat etmişdir.

Hicrətin 45-ci ilində onun cənazə namazını qardaşı Abdullah ibn Ömər, arxasında da, dayıları Həsən və Hüseyn qılmışlar – Allah onların hamısından razı qalsın! (İbn Əsakir, “Tarix Diməşq”, Zeyd ibn Ömərin tərcümeyi-halı).

Ummu Gülsümün Ömərdən رضي الله عنه olan Ruqayyə adlı qızı isə Adiy oğullarından olmuş İbrahim ibn Nueym ibn Nəhhama ərə getmişdir (İbn Həcər, “əl-İsabə”, İbrahim ibn Nueym ibn Nəhhamın tərcümeyi-halı).

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Osman peyğəmbər evində




*Mənbələr: Tərcümeyi-hallara, şəxsiyyətlərə və tarixə aid yazılmış kitabların hamısı.*

*Aşağıdakıları misal çəkmək olar:*

– əz-Zəhəbi, "Tarix əl-İslam", hicrətin 35-ci ili.

– əl-Məclisi, "Bihar əl-Ənvar", 22/201.

– əs-Safdi, "əl-Vafi fil-Vəfəyat", 20/28.

– əl-Yaqubi, "Tarix", 2/162.




*Bu şəkil, Osman ibn Affanın ailəsi ilə şərəfli peyğəmbər ailəsi arasında olan sıx qohumluq əlaqəsinin olmasını açıq-aydın bəyan edir. Belə ki:*

1- Osmanın Peyğəmbərlə qohumluq əlaqəsi, Peyğəmbərin üçüncü babası Abduмənaf ibn Qusey ibn Kilabda birləşir.

2- Peyğəmbərin iki qızını – Ruqayyə və Ummu Gülsümü alıb onunla qohum olmuşdur.

3- Osman ibn Affanın ana nənəsi Ummu Həkim əl-Beyda bint Abdulmuttəlib Peyğəmbərin bibisi, həm də, Peyğəmbərin atası Abdullahın əkiz bacısı olmuşdur.

## Onuncu qeyd

## Osman رضي الله عنه peyğəmbər evində

Osman رضي الله عنه möminlərin əmiri, üçüncü raşidi xəlifə, Cənnətlə müjdələnmiş on nəfərdən biri, İslamı qəbul etməkdə hamını ötüb keçmiş möminlərdən biri, üstəlik, iki kərə – əvvəlcə Həbəşistana, sonra da, Mədinəyə hicrət etmiş səhabədir. O, həm cahillik dönəmində, həm də İslamda olduqca möhtərəm bir insan olmuşdur. Məhz ondan ötrü ağac altında – "Ridvan" beyəti həyata keçirilmişdir. Onun üstünlükləri balaca bir kitaba sığmayacaq qədər çoxdur.

Osmanın رضي الله عنه şərəfli peyğəmbər evinin ortasında olması, aşağıda zikr olunan beş əlaqədən aydın olur:

1- O, Peyğəmbərin ﷺ əmisi oğludur. Belə ki, onun Peyğəmbərlə ﷺ qohumluq əlaqəsi, Peyğəmbərin ﷺ üçüncü babası Abdumənaf ibn Qusey ibn Kilabda birləşir. O, Osman ibn Affan ibn Əbul-As ibn Umeyyə ibn Abduşəms ibn Abdumənafdır.

2- Osman ibn Affanın anası Ərva bint Kureyzdir رضي الله عنها; onun anası əl-Beyda bint Abdulmuttəlib isə Peyğəmbərin ﷺ atası Abdullahın doğma bacısıdır, hətta ana bətnində bir yerdə olmuş əkiz bacı-qardaşdırlar.

3- Osmanın رضي الله عنه ana babası Kureyzin Peyğəmbərlə ﷺ qohumluq əlaqəsi, Peyğəmbərin ﷺ üçüncü babası Abdumənafda birləşir. Beləliklə də, Osman رضي الله عنه həm ana, həm də, ata tərəfdən Peyğəmbərlə ﷺ qohumdur.

4- Sonra da, elə bir şərəf və elə bir fəzilət ki, nə ona tay olmaq, nə də ki, onu keçmək mümkündür. Bu da, Osmanın رضي الله عنه hicrətdən qabaq Ruqayyə رضي الله عنها ilə evlənməsi, onunla bərabər əvvəlcə Həbişistana, sonra da, Mədinəyə hicrət etməsidir. Müsəlmanlar Bədr döyüşündə ikən, Osman رضي الله عنه Peyğəmbərin ﷺ əmri ilə Mədinədə qalıb, məxmərək xəstəliyinə tutulmuş zövcəsinə baxmışdır.

5- Ruqayyə رضي الله عنها vəfat etdikdən sonra, Rəsulullah ﷺ Ruqayyənin رضي الله عنها bacısı Ummu Gülsümü رضي الله عنها Osmana رضي الله عنه ərə vermişdir. Ummu Gülsüm رضي الله عنها hicrətin 9-cu ilində vəfat edənədək onun zövcəsi olmuşdur.

Növbəti səhifələrdə Osmanın رضي الله عنه və onun ailəsinin əhli-beytlə qohumluq əlaqələri barədə əlavə məlumatlar veriləcək.

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

# Həsən ib

## Möminlərin əmiri və beşinci raşidi

## Fəzilətinə dair bəzi rəvayətlər

Əbu Hureyra رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Həsən barəsində belə demişdir: **"Allahım, onu və onu sevən hər kəsi sev!"** Bu hədisi Buxari (2016) və Muslim (2421) rəvayət etmişdir.

Abdullah ibn Ömər ibn əl-Xattab رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Həsən və Hüseyn barəsində belə demişdir: **"Onlar mənim dünyada olan reyhanlarımdır."** Bu hədisi Buxari (3543) rəvayət etmişdir.

Əbu Səid əl-Xudri t rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: **"Həsən və Hüseyn Cənnət cavanlarının hörmətliləridir."** Musnəd Əhməd (11012), Sunən ən-Nəsai əl-Kubra, (8525), Sunən ət-Tirmizi (3768).

## Beşinci raşidi xəlifə

Rəsulullahın ﷺ köləlikdən azad etdiyi səhabəsi Səfinə رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: **"Mənim ümmətim arasında xilafət otuz il davam edəcək. Sonra padşahlıq dövrü başlayacaq".**[1]

Peyğəmbərin ﷺ vəfatından sonra otuz il ərzində yalnız dörd raşidi xəlifənin və onlardan sonra beş ay Həsənin xəlifəliyi daxil olmaqla, bu otuz il tamamlanmışdır [2] – Allah onların hamısından razı qalsın! Nəhayət, otuz ilin tamamında Həsən رضي الله عنه xilafətdən geri çəkilib onu Müaviyəyə رضي الله عنه təhvil vermiş, beləliklə də, bir qədər əvvəl Mustafa səllallahu aleyhi və səlləmdən zikr etdiyimiz hədisdə xəbər verilən peyğəmbərlik möcüzəsi öz təsdiqini tapmışdır.

## Bəzi zövcələri / Bəzi övladları

- **Ummu İshaq bint Talhə ibn Ubeydullah** رضي الله عنه → bu qadından olan övladı: **Talhə**[3]
- **Məlikə bint əl-Əhnəf ibn Qeys** → bu qadından olan övladı:
  - **Əbu Bəkr ibn əl-Həsən** رضي الله عنه — Kərbəlada şəhid edilmişdir.
  - **Ummu Həsən bint əl-Həsən** رضي الله عنها[4] — Abdullah ibn əz-Zubeyr ibn əl-Əvvama رضي الله عنه ərə getmişdir.
- **Ummu Bəşir bint Əbu Məsud əl-Ənsari əl-Bədri** رضي الله عنها → bu qadından olan övladı: **Zeyd** رضي الله عنه[5]
- **Xovlə bint Mənzur əl-Fəzari**[6] → bu qadından olan övladı: **Həsən əl-Musənnə***
- **Həfsə bint Abdurrəhman ibn Əbu Bəkr**[7] — Bəzi rəvayətlərdə xəbər verilir ki, o, Hüseynə رضي الله عنه ərə getmişdir. Bu qadın Cəfər əs-Sadiqin رضي الله عنه anası Ummu Fərvənin xalasıdır.
- Həsənin رضي الله عنه 16-ya yaxın övladı – 11 oğlan, qalanları qız olmuşdur.[8]

### Həsən əl-Musənnə*

- Abdullah əl-Kamil (əl-Məhd) zurriyyətindən bəzisi
  - İdris → Ədarisə dövləti Məğribdə → Bənu Həmud dövləti Əndəlüsdə bənu Umeyyənin axırıncı dövləti
  - Suleyman → Bənu Muhəmməd əl-Uxeydirin Yəmamədəki dövləti
- İbrahim (əl-Ğimr) → Bənu Təbatəba → Muhəmməd ibn Təbatəba Yəmənin Səidə vilayətindəki imamların atası

**Zürriyyətindən bəzisi:**
- Sudanın Qana vilayətindəki bənu Saleh ibn Musa ibn Abdullah əs-Saqi dövləti.
- Bənu Nəmi ibn Səd ibn Qətadənin Məkkədəki dövləti. Allah bu dövləti şərəfli etmişdir.

* Bu bölgü İbn Xaldunun "Tarix əsərin"dən ixtisarla götürülmüşdür (1512).

## Həsənin رضي الله عنه iştirak etdiyi döyüşlər




## Mənb


1 Sunən Əbu Davud (4647), Sunən ət-Tirmizi, 3/341 (2226), Musnəd Əhməd, 5/220 (21969). Həmçinin, "əl-Məbərra" müəssəsinin Həsənin رضي الله عنه beşinci raşidi xəlifə olduğu barədə yazdığı risaləyə bax.

2 Həsənin رضي الله عنه beşinci raşidi xəlifə olması aydın şəkildə, "əl-Bidayə vən-Nihayə", 8/15, Şərh ət-Təhaviyyə, 545, İbn əl-Ərəbinin "Əhkam əl-Quran", 4/172, Nəvəvinin "Şərh Səhih Muslim", 12/201, "Umdə əl-Qari şər Səhih əl-Buxari", 24/24, "Feyd əl-Qədir", 2/409 və "əs-Səvaiq əl-Muhriqa", 2/397 əsərlərində öz təsdiqini tapmışdır.

3 Əli ibn Muhəmməd əl-Ələvi "əl-Məcdi fi Ənsab ət-Talibin", təhqiq Mehdi Rəcai, səh.202.

4 Əli ibn Muhəmməd əl-Ələvi "əl-Məcdi fi Ənsab ət-Talibin", səh.201-202; əl-Beyhəqi, "Lubab əl-Ənsab", 343.

5 İbn Həzm, "Uqud əz-Zəhəb fi Cəmhərəti Ənsab əl-Ərəb", səh.185; əl-Ubeydəli, "Təhzib əl-Ənsab", səh. 33.

6 "əl-Məbərra"nın Həsən əl-Musənnə və oğlu Abdullah adlı nəşr etdiyi kitaba bax.

7 İbn Əsakir, "Tarix Diməşq", Munzir ibn əz-Zubeyrin tərcümeyi-halı; İbn Həbib, "əl-Muhəbbər", səh. 448.

8 İbn Həzm, "Uqud əz-Zəhəb fi Cəmhərəti Ənsab əl-Ərəb", səh.38; İbn Təbatəbai, "Əbna əl-İmam fi Misir və Şam", səh. 77.

# ...n Əli

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

## ...ı xəlifə (doğum tarixi 3h-vəfatı 49h)




## Əbu Bəkr əs-Siddiq ilə əlaqəsi

Əbu Bəkr xəlifə seçildiyi il Həsənin təqribən doqquz yaşı var idi. Əbu Bəkrin Həsənə olan sevgisinin əlaməti, Buxarinin "Səhih"ində nəql edilmiş, Uqbə ibn əl-Harisin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Uqbə demişdir: "Bir gün Əbu Bəkr əsr namazını qıldırdıqdan sonra çıxıb getdi və yolda Həsənin uşaqlarla oynadığını gördü. Əbu Bəkr Həsəni qaldırıb çiyninə otuzdurdu və dedi: "Atam sənə qurban, sən Əlidən çox, Peyğəmbərə oxşayırsan. Əli bunu eşitdikdə gülümsədi".[11]

## Ömər əl-Faruq ilə əlaqəsi

Ömər xəlifə seçildiyi il Həsənin on bir yaşı var idi. O, iyirmi bir yaşına yetişənədək Ömərin xilafəti davam etdi.

Ömərin Həsənə və onun qardaşı Hüseynə olan sevgisinin əlamətləri bunlardır:

1- Ömər qənimətlərdən Həsən və Hüseyn üçün, Bədrdə iştirak etmiş yaşlı səhabələrə ayırdığı pay qədər, pay ayırarmış. Hətta sasani imperiyasından əldə edilmiş qənimətlərdən, səhabələrin hamısından əvvəl Həsənə, sonra da, Hüseynə pay vermişdir.[12]

2- Bir gün Yəməndən bürüncək gətirdilər, lakin bu bürüncəklər Həsənə və Hüseynə yaraşmadığından, Ömər yenidən Yəmənə adam göndərib onlara layiq bürüncəklər gətizdirdi. Sonra dedi: "İndi qəlbim rahat oldu".[13]

3- Ömər pay bölgüsündə Həsən və Hüseyni öz oğlu Abdullah ibn Ömərdən üstün tutduqda, oğlu dedi: "Sən onları məndən üstün tutursan, halbuki mən daha öncə səhabə olmuşam və bir də hicrət etmişəm?!" Onda Ömər ona belə cavab verdi: "Sus, onun atası sənin atandan xeyirli, anası da, sənin anandan xeyirlidir".[14]

## Osman zun-Nureyn ilə əlaqəsi

Həsən otuz yaşını keçənədək Osmanın xilafəti davam etdi. Həsənin raşidi xəlifə Osman ibn Affana olan sevgisinin və ehtiramının əlaməti bu idi ki, xəvariclərin bir qolundan olmuş Mariqələr müsəlmanların xəlifəsinin evini mühasirəyə aldıqda, o, xəlifənin müdafiəsinə qalxıb onlarla vuruşmuşdur. Hərçənd, Osman ona qılıncını qınına salıb atasının yanına qayıtmağı buyurmuş, lakin o, bundan imtina etmiş və ağır yaralananadək onlarla vuruşmuşdur.[15]

## Xilafəti tərk etməsi və müsəlman qanının axıdılmasının qarşısını alması

Belə etmişdir ki, Peyğəmbərin bu sözünü gerçəyə çevirsin: "Mənim bu nəvəm çox möhtərəm insandır. Olsun ki, Allah Onun sayəsində müsəlmanlardan olacaq iki böyük ordu arasındakı qırğının qabağını alsın".[16]

Baxmayaraq ki, bu möhtərəm və şərəfli insanın güclü məqamı, əlinin altında da, on minlərlə atlı və əllərində sivri qılınclar tutmuş əsgərləri olmuş, lakin o, müsəlman qanının axıdılmasının qarşısını almış, xilafəti tərk edib Allahın mükafatına ümid bəsləmişdir.

Həsən beş ay xəlifə olduqdan sonra öz ixtiyarı ilə xilafəti Müaviyəyə təhvil vermişdir. Nəhayət, iki dəstəyə bölünmüş insanlar bir xəlifəyə beyət edərək camaat olmuş və elə buna görə də, hicrətin 40-cı ili, camaat ili adlanmışdır.

Həsən ibn Əliyə: "Camaat iddia edir ki, sən xəlifə olmaq istəyirsən" deyildikdə, o belə cavab vermişdir: "Ərəblərin kəllələri mənim əlimdə idi. Sülh bağladığım kimsələrlə sülh bağlayar, müharibə etdiyim kimsələrlə də, müharibə edərdilər. Sonra, Allahın rizasını qazanmaq üçün bu xilafəti tərk etdim."[17]

## ...bələr:


9 İbn Xaldun, "Tarix", 2/128.
10 "Tarix ət-Təbəri", 5/270; İbn əl-Əsir, "əl-Kamil fit-Tarix", (hicrətin 30-cu ilindəki hadisələr); "Tarix İbn Xaldun", 3/135.
11 əl-Buxari, "əl-Mənaqib" kitabı, "Peyğəmbərin vəsfi" fəsli (3349).
12 Əbu Yusuf, "əl-Xərac", səh.43; Abdurrəzzaq, "əl-Musənnəf", 11/100; əz-Zəhəbi, "Siyər Əlam ən-Nubələ", 3/259.
13 İbn Əbul-Hədid, "Şərh Nəhc əl-Bəlağə", 12/215.
14 əl-Məclisi, "Bihar əl-Ənvar", 10/38; İbn Şəhr Aşub, "Mənaqib Əli ibn Əbu Talib", 2/269.
15 İbn Əbu Şeybə, "əl-Musənnəf", 15/224; İbn Əsakir, "Tarix Diməşq", (Osmanın tərcümeyi-halı – 37694) 39/390; İshaq İbn Rahuyə, "Müsnəd", 2088; əl-Acurri, "əş-Şəriə", 434; İbn Kəsir, "əl-Bidayə və-Nihayə", 8/36.
16 Buxari bu hədisi (öz isnadı ilə), "Sülh" kitabında, Peyğəmbərin Həsən barədə: "Mənim bu nəvəm çox möhtərəm insandır"– deməsi" adlı fəsildə, Əbu Bəkrədən rəvayət etmişdir (2704-cü hədis).
17 əl-Bəlazuri, "Ənsab əl-Əşraf", 3/49.

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

# Hüseyn i

(doğum tarixi

Rəsulullah demişdir: "Həsən və Hüs

## Övladları

Əli (Zeynulabidin), Muhəmməd, Cəfər, yaşca böyük Əli, Səkinə, Fatimə, (habelə, Ömər, südəmər Abdullah, yaşca kiçik Əli – bu adlar xüsusunda müxtəlif rəylər söylənilmişdir.[1]

## Qardaşları və bacıları

Əli ibn Əbu Talibin çox övladı olmuşdur. Bunların ən tanınmışları bunlardır:

- Həsən: Hüseynin doğma qardaşı.
- Muhəmməd (İbn əl-Hənəfiyyə).
- Əbu Bəkr, Abbas, Osman, Cəfər, Abdullah – hamısı Hüseyn ilə birlikdə şəhid olmuşlar.
- Ömər: Əlinin övladları arasında ən son vəfat etmiş övladıdır.

Bacılarına gəlincə, onların sayı çoxdur, lakin tanınmışları bunlardır: Zeynəb, Ummu Gülsüm, Xədicə, Məymunə, Ramlə və Cumana.[2]

## Kürəkənləri

### Fatimə

Həyat yoldaşları

1. Həsən ibn Həsən ibn Əli ibn Əbu Talib
2. Abdullah ibn Amr ibn Osman ibn Affan

### Səkinə

Həyat yoldaşları

1. Abdullah ibn Həsən ibn Əli ibn Əbu Talib
2. Musab ibn əz-Zubeyr ibn əl-Əvvam
3. Əsbəğ ibn Abdulaziz ibn Mərvan ibn əl-Həkəm
4. Zeyd ibn Amr ibn Osman ibn Affan
5. Abdullah ibn Osman ibn Abdullah ibn Həkim ibn Hizam
6. İbrahim ibn Abdurrəhman ibn Auf ibn

Xətib əl-Bağdadi, "Tarix Bağdad", 5/368; əz-Zəhəbi "Siyər Əlam ən-Nubələ", 11/265; əl-Bəlazuri, "Ənsab əl-Əşraf" (Hüseynin övladları barədə qeydlər); Muhsin əl-Əmin, "Əyan əş-Şiyə", 3/492; imam əl-Buxari, "Tarix əl-Ovsat", 1/345; İbn Əsakir, "Tarix Diməşq", 9/170; İbn Həbib, "əl-Muhəbbər", səh.438; əl-Yafi, "Mirat əl-Cinan", 1/117; Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn", səh.120 (Tarixçilər Səkinənin həyat yoldaşlarının ardıcıllığı xüsusunda ixtilaf etmişlər. Onların üçü bu evlilikdən az müddət sonra vəfat etmişlər).

## Hüseynin iştirak etdiyi döyüş




1 Zəhəbi, "Siyər Əlam ən-Nubələ", 5/314; İbn Bəkkar, "Nəsəbu Qureyş", 5/57.
2 əl-Mufid, "əl-İrşad", səh.248; ət-Təbəri, "Tarix", 4/359; ibn Bəkkar, "Nəsəbu Qureyş", 2/40.
3 İbn Xaldun, "Tarix", 2/128.
4 İbn Kəsir, "əl-Bidayə vən-Nihayə", 8/151; ət-Təbəri, "Tarix", 6/148; İbn əl-Ədim, "Buğyətut-Talib fi Tarix Hələb", 3/8.
5 ət-Təbəri, "Tarix", 5/270; İbn əl-Əsir, "əl-Kamil fit-Tarix", (30-cu ilin hadisələrin); İbn Xaldun, "Tarix" 2/135.
6 əl-Qummi, "Muntə əl-Əmal", səh.568; Abbas əl-Qummi, "Ənf əl-Məhmum", səh.365.
7 ət-Təbəri, "Tarix", 4/346; Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn", səh.80; İbn Babaveyh, "Əmali əs-Saduq", səh.226.
8 əl-Məclisi, "Bihar əl-Ənvar", 44/333; İbn Əsakir, "Tarix Diməşq", 14/216; əl-Muhsin əl-Əmin, "Əyan əş-Şiyə", səh.26; əl-Murtəda "əl-Məlhəmə əl-Hüseyniyyə", 1/129.

# ...bn Əli

...4h-şəhid olduğu tarix 61h)

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

...seyn Cənnət cavanlarının hörmətliləridir".

Bu hədisi Əhməd, Tirmizi, Nəsai və İbn Macə rəvayət etmişdir.

## ...lər




[9] İbn Teymiyyə, "Minhac əs-Sunnə" 4/557; ət-Təbəri, "Tarix", 3/339; İbn əl-Ədim, "Buğyətut-Talib fi Tarix Hələb", 3/38; əl-Mufid, "əl-İrşad", 2/122; əl-Məclisi, "Bihar əl-Ənvar", 45/146.

[10] İbn Kəsir, "əl-Bidayə vən-Nihayə", 8/174; İbn Əsakir, "Tarix Diməşq", 14/201; İbn Sabbağ, "əl-Fudul əl-Muhimmə", 2/802; əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn", səh.73; əl-Məclisi, "Bihar əl-Ənvar", 44/185.

[11] ət-Təbəri, "Tarix", 4/343; əl-Muhsin əl-Əmin, "Əyan əş-Şiyə", 2/302; ən-Nomani, "Şərh əl-Əxbar", 3/177; əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn", səh.75.

[12] əl-Xəllal, "əs-Sunnə", 3/522.

[13] İbn Teymiyyə, "Məcmu əl-Fətavə", 4/487; İbn Teymiyyə, "Minhac əs-Sunnə ən-Nəbəviyyə", 4/550.

[14] əl-Qurtubi, "ət-Təzkira", 2/215.

## Onun qatilləri

**Döyüşdən qabaq:**

Onu öldürmək məqsədilə yola çıxmış Kufə həli və onların övladları.[6]

**Döyüş əsnasında:**

Hüseynin qətlinə fərman verən Ubeydullah ibn Ziyad, ordunun başçısı Ömər ibn Səd, ona qarşı vuruşan həmin ordu və xüsusilə onu qətlə yetirən:

- Sinan ibn Ənəs ən-Nəxəi.
- Şümür ibn zil-Cövşən.[7]

## Ona qarşı vəfasız olanlar

1- Ona məktublar göndərməklə tədricən onu inandıran Kufə əhli).[8]

2- Yezid ibn Müaviyə; o Yezid ki, Hüseynin qatillərindən intiqam almamış və onları cəzalandırmamış, sadəcə Ubeydullah ibn Ziyadı bu əməlinə görə söymüş və bir də Hüseynin ailəsinə maddi yardım göstərmişdir.[9]

## Onun tərəfdarları

**Döyüşdən qabaq:**

– Ona Yezidin yanına getməməyi nəsihət edən səhabələr və əhli-beyt: İbn Abbas, İbn Ömər, İbn əz-Zubeyr, Muhəmməd ibn Əli ibn əl-Hənəfiyyə, Abdullah ibn Cəfər ibn Əbu Talib, Abdullah ibn Muti, Abdullah ibn Ayyaş, Yezid ibn əl-Əsam, Əbu Vaqid əl-Leysi və başqaları – Allah onların hamısından razı qalsın![10]

**Döyüş əsnasında:**

– Qardaşları: Əbu Bəkr, Abbas, Osman, Cəfər və Abdullah, habelə, öz oğlanları və qardaşlarının oğlanları – Allah onların hamısından razı qalsın! – və Hərb ibn Yezid ət-Təmimi kimi digər tərəfdarları.[11]

**Döyüşdən sonra:**

– Onun qatillərini fasiq və ədalətsiz sayan alimlər. Onlardan bəzisi bunlardır:

– Əbu Bəkr ibn Xalləl demişdir: "Hüseyn ibn Əlini öldürənə Allah lənət eləsin! Öməri öldürənə Allah lənət eləsin! Osmanı öldürənə Allah lənət eləsin! Əlini öldürənə Allah lənət eləsin!"[12]

– Təqiyyuddin İbn Teymiyyə demişdir: "Hüseyni qətlə yetirənlərə, buna dəstək verənlərə və bundan razı qalanlara Allahın, mələklərin və bütün insanların lənəti olsun!"[13]

– Qurtubi Hüseyn və onun qatillərin barədə demişdir: "Allah ona rəhm etsin, onun qatillərinə isə rəhm etməsin! Allah ondan razı qalsın, onun qatillərindən isə razı qalmasın!"[14]

# Peyğəmbərin ﷺ ailəsi ilə Osmanın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri






- səhabə; rəqəmi, forması, və rəmzi bir-birinə uyğun gələnlər, bu iki möhtərəm şəxsiyyətin, Peyğəmbərin ﷺ ailəsi və Osmanın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqəsinin olduğuna dəlalət edir.

Mühüm bir haşiyə: bu şəcərə qohumluq əlaqələrinin və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir.

## (Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər


– İbn Əsakir, “Tarix Diməşq”
– İbn Səd, “ət-Təbəqat əl-Kubra”
– İbn Həzm, “Cəmhərətu Ənsab əl-Arab”
– əz-Zubeyri ibn Bəkkar, “Nəsəbu Qureyş”
– İbn Anbə, “Umdə ət-Talib”
– əl-Bəlazuri, “Ənsab əl-Əşraf”
– əl-Yaqubi, “Tarix”
– Əbul-Fərəc əl-Əsfəhani, “Məqatil ət-Talibiyyeyn”
– Abbas əl-Qummi, “Muntəhə əl-Əmal”
– İbn Həbib, “əl-Muhəbbər”
– İbn ət-Təqtəqi, “əl-Əsiyəli”
– əl-Ərbili, “Kəşf əl-Ğummə”


Uca Allah buyurur: “Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər” (əl-Fəth, 29).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt və səhabələr arasında isti münasibət olmuş, üstəlik, baş vermiş fitnələrdən əvvəl də, sonra da, onların arasında qohumluq əlaqələri davam etmişdir. Bu da, əhli-beyt ilə səhabələr, həm də, onlardan sonra gəlmiş onların zürriyyətləri arasında isti münasibətin davam etdiyini təsdiq edir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

## On üçüncü qeyd

## Peyğəmbərin ﷺ ailəsi ilə Osmanın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri

Bu qeyddən Peyğəmbərin ﷺ ailəsi ilə Osmanın رضي الله عنه ailəsi arasındakı səkkiz qohumluq əlaqəsi açıq-aydın görünür. Bu qeyddən, həmçinin, aşağıdakılar da, aydın olur:

1. Osman və onun ailəsi رضي الله عنه şərəfli peyğəmbər nəsəbi ilə, Peyğəmbərin ﷺ üçüncü babası Abdumənafda birləşməsi.

2. Osmanın رضي الله عنه Peyğəmbərin ﷺ iki qızı – Ruqayyə və Ummu Gülsüm رضي الله عنهما ilə evlənməsi.

3. Bu qohumluq əlaqələrinin beş nəsildə davam etməsi: Osman رضي الله عنه və oğlu Əban, nəvələri Mərvan, habelə, Amrın iki oğlu – Zeyd və Abdullah, sonra da, Osman رضي الله عنه kötükcələri.

4. Osmanın رضي الله عنه zürriyyətindən olanların Həsənin رضي الله عنه əhli-beytindən iki nəfərlə, Hüseynin رضي الله عنه əhli-beytindən də, üç nəfərlə ailə qurması.

Hər kəsə məlumdur ki, evlilik, ailələr arasındakı bağlılığı və ictimai əlaqələri bir qədər də sıxlaşdırır. Belə evliliklər artdıqca əlaqələr də artır. Məgər gördüyün bu əlaqələrin çox olması və ayrı-ayrı nəsillərə şamil edilməsi, Peyğəmbərin ﷺ əhli-beytə və səhabələrə verdiyi tərbiyənin gözəl nəticəsi deyilmi?! Hətta övladları və nəvələri də, bir-birləri ilə qohum olmuşlar.

Yaxşı-yaxşı düşün... Heç sən razı olarsanmı ki, müsəlman olmasına və ya əxlaqının İslama uyğun olmasına şübhə etdiyin, yaxud da, düşmən olduğuna şəkk etdiyin bir kimsə ilə qohum olasan və ya o səninlə qohum olsun?!

Əgər sən buna razı deyilsənsə, bil ki, əhli-beyt və səhabələr səndən çox buna razı olmazdılar.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

# Peyğəmbərin ﷺ ailəsi ilə əmilərinin oğullarının arasındakı qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu




Əhli-beyt ilə Osman ibn Affanın və onun nəslinin arasındakı xüsusi qohumluq əlaqələrinin həm çox, həm də, əhəmiyyətli olduğuna görə, biz artıq onu ayrıca bir səhifədə qeyd etmişik.

- səhabə; rəqəmi, forması, və rəmzi bir-birinə uyğun gələnlər, bu iki möhtərəm şəxsiyyətin, Haşim oğullarının və onların əmilərinin oğullarının arasındakı qohumluq əlaqəsinin olduğuna dəlalət edir.

## (Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər

– İbn Əsakir, "Tarix Diməşq"
– İbn Səd, "ət-Təbəqat əl-Kubra"
– İbn Həzm, "Cəmhərətu Ənsab əl-Arab"
– əz-Zubeyri ibn Bəkkar, "Nəsəbu Qureyş"
– İbn Anbə, "Umdə ət-Talib"
– əl-Bəlazuri, "Ənsab əl-Əşraf"
– əl-Yaqubi, "Tarix"
– Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn"
– Abbas əl-Qummi, "Muntəhə əl-Əmal"
– İbn Həbib, "əl-Muhəbbər"
– İbn ət-Təqtəqi, "əl-Əsiyəli"
– əl-Ərbili, "Kəşf əl-Ğummə"

**Mühüm bir haşiyə: bu şəcərə qohumluq əlaqələrinin və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir.**

Uca Allah buyurur: "Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər" (əl-Fəth, 29).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt və səhabələr arasında isti münasibət olmuş, üstəlik, baş vermiş fitnələrdən əvvəl də, sonra da, onların arasında qohumluq əlaqələri davam etmişdir. Bu da, əhli-beyt ilə səhabələr, həm də, onlardan sonra gəlmiş onların zürriyyətləri arasında isti münasibətin davam etdiyini təsdiq edir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

## On dördüncü qeyd

## Peyğəmbərin ﷺ ailəsi ilə əmilərinin oğullarının arasındakı qohumluq əlaqələri

Bəlkə də bu qeyd, özündə ən çox məlumat cəm edən bir qeyddir. Baxmayaraq ki, biz Osmanın ؓ əhli-beytinin qohumluq əlaqələrini ayrıca bir səhifədə təfsilatlı şəkildə izah etdik, lakin ey hörmətli oxucu, bu qeyddən sənə bir neçə həqiqət aydın olacaq:

1. Bu çoxşaxəli qohumluq əlaqələri dəlildir ki, peyğəmbər ailəsi bir neçə nəsil dönəmində öz cəmiyyətindən ayrılmamışdır.

2. Peyğəmbərin ﷺ üç qızı Qureyşin bu ailəsinə aiddir (əlbəttə ki, əgər Osmanı ؓ nəzərə alırıqsa).

3. Bu ailələr arasında səkkiz qohumluq əlaqəsi Osmanın ؓ ailəsinə, altısı Mərvan ibn əl-Həkəmin ailəsinə, dördü də, Əbu Süfyanın ؓ ailəsinə aiddir.

4. Bu ailələr arasında on iki qohumluq əlaqəsi Əli ibn Əbu Talibin ؓ ailəsinə aiddir. Bu əlaqənin əlamətləri həm bu qeyddə, həm də, Peyğəmbərin ﷺ əhli-beti ilə Osmanın ﷺ əhli beyti arasındakı qohumluq əlaqələrini aşkar edən qeyddə aydın görsənir.

5. Bu qohumluq əlaqələrinin çoxu Siffin, Cəməl və Kərbəla kimi hadisələrdən sonra qurulmuşdur.

6. Peyğəmbərin ﷺ əhli-beyti ilə Əbu Süfyanın əhli-beyti arasında dörd qohumluq əlaqəsi qurulmuşdur. Bunların ən məşhuru, Peyğəmbərin ﷺ Əbu Süfyanın qızı Ummu Həbibə ilə evlənməsidir. O, Peyğəmbərin ﷺ zövcələri arasında nəsəbcə ona ən yaxın olan zövcəsidir.

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Zubeyr peyğəmbər evində




**Mənbələr:** Xüsusilə tərcümeyi-hallara, şəxsiyyətlərə və tarixə aid yazılmış kitabların hamısı. Aşağıdakıları misal çəkmək olar:

– əz-Zəhəbi, "Siyər Əlam ən-Nubələ", 1/43.
– İbn Həcər, "əl-İsabə", (Zubeyrin tərcümeyi-halı)
– Muhəmməd ibn Məkki əl-Amili, "əl-Qəvaid vəl-Fəvaid", 2/327.
– Əli ən-Namazi əş-Şahrudi, "Mustədrəkat Elm ər-Rical", 3/419 (7175).

(bir başa olan ata-övlad əlaqəsi)

(bir başa olmayan ata-övlad əlaqəsi)

səhabə

Bu şəkil, Peyğəmbərin həvarisi Zubeyr ibn əl-Əvvamın ailəsi ilə şərəfli peyğəmbər ailəsi arasında olan isti münasibətin olmasını açıq-aydın bəyan edir. Belə ki:

1- Zubeyr Peyğəmbərin əmisi oğludur və onunla Qusey ibn Kilabda birləşir.

2- O, həmçinin, Peyğəmbərin bibisi Safiyyə bint Abdulmuttəlibin oğludur.

3- Möminlərin anası və Peyğəmbərlərin ən hörmətlisinin zövcəsi, möhtərəm Xədicə bint Xuveylidin qardaşı oğludur.

4- Möhtərəm Fatimeyi Zəhranın dayısı oğludur.

## On beşinci qeyd

## Zubeyr ﷺ peyğəmbər evində

Rəsulullahın ﷺ həvarisi (ən yaxın sirdaşı), Zubeyr ibn əl-Əvvam ibn Xuveylid ibn Əsəd ibn Abduluzza ibn Qusey ibn Kilab əl-Quraşi əl-Əsədi, Əbu Abdullah.

Rəsulullahın ﷺ bibisi Safiyyə bint Abdulmuttəlibin oğlu, Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə, Ömərdən sonra xəlifəliyə namizəd olan şuranın altı üzvündən biridir. Anası ona öz qardaşı Zubeyr ibn Abdulmuttəlibin kunyəsini verməklə ona Əbu Tahir deyərmiş. O isə özünə oğlu Abdullahın adı ilə kunyə götürmüş və o kunyə ilə tanınmışdır.

Zubeyr on iki yaşında, bəzi rəvayətlərə görə isə səkkiz yaşında İslam dinini qəbul etmişdir.

Zubeyr ibn əl-Əvvamın peyğəmbər ailəsi ilə bir neçə qohumluq bağı var:

1. Şəcərəsinin Peyğəmbərin ﷺ dördüncü babası Qusey ibn Kilabda birləşməsi.

2. Anası Safiyyə bint Abdulmuttəlib ibn Haşim əl-Quraşiyyə əl-Haşimiyyə Rəsulullahın ﷺ bibisi və Həmzənin doğma bacısıdır. Safiyyənin anası Halə bint Vəhb də, Rəsulullahın ﷺ xalasıdır. Safiyyə əvvəlcə Haris ibn Hərb ibn Umeyyədə ərdə olmuş, o vəfat etdikdən sonra isə əl-Əvvam ibn Xuveylid ibn Əsəd ibn Abduluzzaya ərə getmiş və bu ərindən onun Zubeyr və Saib adlı oğlanları olmuşdur. Safiyyə İslamı qəbul etmiş, sonra oğlu Zubeyr ilə birlikdə Mədinəyə hicrət etmiş və Ömərin xilafətinədək yaşamışdır.

3. Zubeyrin bibisi, möminlərin anası, dünyanın ən fəzilətli qadınlarından biri və İslamı ilk qəbul etmiş mömin Xədicə bint Xuveyliddir.

4. Odur ki, Rəsulullahın ﷺ qızı Fatimə Zubeyrin bibisi qızı sayılır.

Elə buna görə də, biz uca səslə deməliyik ki... Zubeyr peyğəmbər evindədir.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Əli ibn Əbu Talibin رضي الله عنه ailəsi ilə Zubeyr ibn əl-Əvvamın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri

100 il ərzində Əlinin رضي الله عنه ailəsi ilə Zubeyrin t ailəsi arasındakı 13 qohumluq əlaqəsi

## Qusey ibn Kilab

Abdulmuttəlib ibn Haşim ibn Abdumənaf → Əli ibn Əbu Talib رضي الله عنه

Xuveylid ibn Əsəd ibn Abduluzza → Zubeyr ibn əl-Əvvam رضي الله عنه

| | Əli ibn Əbu Talib رضي الله عنه → | | | ← Zubeyr ibn əl-Əvvam رضي الله عنه |
|---|---|---|---|---|
| 1 | | Fatimə | əl-Munzir | Ubeydə |
| 2 | Həsən رضي الله عنه → Həsən | Məlikə | Cəfər | Musab |
| 3 | Həsən رضي الله عنه | Ruqayyə | Amr | əl-Munzir |
| 4 | Həsən رضي الله عنه → Həsən → Abdullah | Muhəmməd | Faxitə | Fuleyh ← Muhəmməd ← əl-Munzir |
| 5 | Həsən رضي الله عنه | Hüseyn | Əminə | Həmzə ← əl-Munzir |
| 6 | Həsən رضي الله عنه | Nəfisə (Ummu Həsən) | | Abdullah رضي الله عنه |
| 7 | Hüseyn رضي الله عنه | Səkinə | | Musab |
| 8 | Hüseyn رضي الله عنه → Əli | Hüseyn | Xalidə | Həmzə ← Musab |
| 9 | Hüseyn رضي الله عنه → Əli → Ömər | Musa | Ubeydə | Zubeyr ← Hişam ← Urva |
| 10 | Hüseyn رضي الله عنه → Əli → Ömər | Cəfər | Fatimə | Osman ← Urva |
| 11 | Hüseyn رضي الله عنه → Əli → Hüseyn | İbrahim | Bureykə | Ubeydullah ← Muhəmməd ← əl-Munzir |
| 12 | Muhəmməd → Əli → Avn | Muhəmməd | Safiyyə | Muhəmməd ← Musab |
| 13 | Hüseyn رضي الله عنه → Əli → Hüseyn | Abdullah | Ummu Amr | Amr ← Zubeyr ← Amr |

رضي الله عنه səhabə → ata-övlad əlaqəsi ○ evlilik əlaqəsi

Mühüm bir haşiyə: bu şəcərə qohumluq əlaqələrinin və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir.


(Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər.

– İbn Quteybə, “əl-Məarif”, 224
– Muhəmməd Məhdi əl-Hairi, “Şəcərətu Tubə”, 120
– İbn Həzm, “Cəmhərətu Ənsab əl-Arab”, səh.22, 53 və 55
– Əbu Nəsr əl-Buxari, “Sirru əs-Silsilə əl-Ələviyyə”, səh.8, 69, 78 və 79
– əl-Xoi, “Mocəm Rical əl-Hədis”, 12/76
– əz-Zubeyri, “Nəsəbu Qureyş”, səh. 19 və 26
– İbn Həbib, “əl-Muhəbbər”, səh.57
– ən-Namazi, “Mustədrəkat Elm ər-Rical”, 8226-cı tərcümeyi-hal
– Əli ibn Muhəmməd əl-Ələvi “əl-Məcdi fi Ənsab ət-Talibin”, səh.195.
– İbn Səd, “ət-Təbəqat əl-Kubra”, 5/327


Uca Allah buyurur: “Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər” (əl-Fəth, 29).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt ilə səhabələr, həm də, onlardan sonra gəlmiş onların zürriyyətləri arasında isti münasibətlər davam etmişdir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

## On altıncı qeyd

## Əlinin ﵁ ailəsi ilə Zubeyrin ﵁ ailəsi arasındakı qohumluq əlaqələri

Əhli-beyt ilə səhabələr arasında ümumi şəkildə, Əli ibn Əbu Talibin ﵁ ailəsi ilə Zubeyrin ﵁ ailəsi arasında isə xüsusi şəkildə olan bu möhkəm köklü sevginin bağlılığını tamamlamaq üçün bu qeydi təqdim edirik. Bundan da, aşağıdakı nəticələri çıxara bilərik:

1. Bu qohumluq əlaqələri hicrətin 36-ci ilində baş vermiş Cəməl döyüşündən sonra qurulmuşdur. Bu da, parlaq və açıq-aydın şəkildə bizə göstərir ki, Cəməl hadisəsi onların arasındakı münasibəti korlamamışdır. Həmçinin, onu da göstərir ki, şərqşünasların iftira yaxmaq və hadisələri bəzəməklə, səhabələr arasında nifrət və ədavət olduğunu demələrinin, yalandan və iftiradan başqa nə bir mənbəyi, nə də bir əsası var.

2. Bu 13 qohumluq əlaqəsi bəlli dövrdə, övladların və nəvələrin yaşadığı altı nəslin dövründə qurulmuşdur.

3. Həsənin ﵁ ailəsindən beş nəfərlə qohumluq əlaqəsi qurulmuşdur: oğlu və nəvəsi, habelə, Həsənin ﵁ iki qızı – Ruqayyə və Nəfisə və bir də qız nəvəsi Məlikə.

4. Hüseynin ﵁ ailəsindən də, həmçinin, altı nəfərlə qohumluq əlaqəsi qurulmuşdur: bunlardan beş kişi Əli ibn Hüseynin nəvələri, biri də Hüseynin ﵁ qızı Səkinədir.

5. Musab ibn Zubeyrin Əlinin ailəsi ilə dörd qohumluq əlaqəsi var imiş – Allah onların hamısından razı qalsın!

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Əli ibn Əbu Talibin ailəsi ilə Talhə ibn Ubeydullahın ailəsi arasındakı qohumluq əlaqələri




səhabə; **rəqəmi, forması, rəmzi və rəngi** bir-birinə uyğun gələnlər, bu iki möhtərəm şəxsiyyətin, Əlinin ailəsi və Talhənin ailəsi arasındakı qohumluq əlaqəsinin olduğuna dəlalət edir.

## (Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər

- İbn Qutəybə, "əl-Məarif", 232
- İbn Həzm, "Cəmhərətu Ənsab əl-Arab", 52
- əz-Zubeyri, "Nəsəbu Qureyş", 25
- əl-Mufid, "əl-İrşad", 2/130
- əl-Bəlazuri, "Ənsab əl-Əşraf", 1/474
- Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn", 122
- ət-Təbrisi, "Tac əl-Məvalid", 35
- İbn Həbib, "əl-Muhəbbər", 438, 448 və 450

Mühüm bir haşiyə: bu şəcərə qohumluq əlaqələrinin və nəsəblərin hamısını yox, bəzisini özündə əks etdirir.

Uca Allah buyurur: "Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər" (əl-Fəth, 29).

Bu şəcərə sayəsində İslam mənbələri şahidlik etmiş və bildirmişdir ki, əhli-beyt ilə səhabələr, həm də, onlardan sonra gəlmiş onların zürriyyətləri arasında isti münasibət davam etmişdir. Elə isə gəlin tarixdəki saxta xəbərlərdən uzaq duraq.

## On yeddinci qeyd

## Əlinin ailəsi ilə Talhənin ailəsi arasındakı qohumluq əlaqələri

Bu qeyd əlavə bir dəlil olaraq göstərir ki, Cəməl döyüşü xüsusunda varid olmuş uydurma rəvayətlərdən uzaq durmaq gərəkdir. Yoxsa ki, əgər onların qəlbi nifrət və ədavətlə dolu olmuş olsaydı, Əlinin ailəsini, əvvəldə qeyd etdiyimiz kimi, Zubeyrin ailəsi ilə, habelə, bu qeyddə şahid olduğumuz kimi Talhənin ailəsi ilə qohum olmağa təşviq edən nə idi?

Talhəyə gəlincə, o, Əbu Muhəmməd Talhə ibn Ubeydullah ibn Osman ibn Amr ibn Kəb ibn Səd ibn Teym ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib əl-Quraşi ət-Teymidir.

O, Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə, İslamı ilk əvvəl qəbul etmiş səkkiz nəfərdən biri, həmçinin, Əbu Bəkrin sayəsində İslamı qəbul etmiş beş nəfərdən biri və bir də, Ömərdən sonra xəlifəliyə namizəd olan şuranın altı üzvündən biridir. Onun fəziləti və öndə gedənlərdən olması hamıya bəllidir. Lakin bu qeyddən aşağıdakı nəticələri də çıxara bilərik:

1. Həsən ibn Əli Talhənin qızı Ummu İshaqla evlənmiş və ondan olan oğluna Talhə adını vermişdir.

2. Həsənin vəfatından sonra, elə öz vəsiyyəti ilə qardaşı Hüseyn Ummu İshaqla evlənmiş və ondan onun Fatimə adlı qızı olmuşdur.

3. Sual: Məgər Həsən və Hüseyn Cəməl döyüşündə iştirak etməmişdilər? Əgər Cəməl döyüşü şərqşünasların və onlardan sonra gələn fitnəkarların təsvir etdiyi kimi olmuş olsaydı, onda bəs nə üçün Həsən və Hüseyn Talhənin ailəsindən qız alırdılar?

Belə yalanlardan uzaq durmaq gərəkdir. Çünki, şübhəli fikirləri qələmə almış əllər tarixi təhrif etmişdir.

4. Abdullah əl-Məhd ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Talib və Avn ibn Muhəmməd ibn Əli ibn Əbu Talib, Talhənin qız nəvəsi Həfsa bint İmran ibn İbrahim ibn Muhəmməd ibn Talhə ilə evlənmişdir. Muhəmməd atası ilə birlikdə Cəməl döyüşündə şəhid edilmişdir.

5. Hüseynin qız nəvəsi Abdə bint Əli ibn Hüseyn, Talhənin nəvəsi Nuh ibn İbrahim ibn Muhəmməd ibn Talhəyə ərə getmişdir. Bu qız Muhəmməd əl-Baqirin bacısı, Cəfər əs-Sadiqin bibisi və Zeynulabidinin qızıdır.

6. Əziz və hörmətli oxucumuz, məgər sən görmürsən ki, ümmətin birliyini qoruyub saxlamaq əsas məqsəd olduğu üçün əhli-beyt və səhabələr buna riayət etmişlər. Onlar bizim üçün necə də gözəl nümunədirlər!

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Hüseyn ibn Əli ibn Əbu Talibin səhabələrin övladlarından olan kürəkənləri

*Bu qohumluq əlaqələrinin hamısı Kərbəla hadisəsindən (61h) sonra qurulmuşdur. Yalnız Həsən əl-Musənnənin Fatimə ilə, habelə, Abdullah ibn Həsənin Səkinə ilə evlənməsi istisnadır.*







Səkinənin həyat yoldaşlarının sayının çox olmasının bəzi səbəbləri budur ki, onlardan bir qismi şəhid olmuş və qətlə yetirilmiş, digərləri də, evləndikdən az müddət sonra vəfat etmişdir. Üstəlik, bir boşanma hadisəsi də, qeydə alınmışdır.

## (Mövzuya dair) ən mühüm mənbələr və məxəzlər


– İbn Əsakir, "Tarix Diməşq"
– İbn Səd, "ət-Təbəqat əl-Kubra"
– İbn Həzm, "Cəmhərətu Ənsab əl-Arab"
– əz-Zubeyri ibn Bəkkar, "Nəsəbu Qureyş"
– Muhsin əl-Əmin, "Əyan aş-Şiyə"
– əl-Bəlazuri, "Ənsab əl-Əşraf"
– əl-Huliy, "Təzkira əl-Fuqəha"
– Əbul-Fərəc əl-Əsfəhani, "Məqatil ət-Talibiyyeyn"
– Abbas əl-Qummi, "Muntəhə əl-Əmal"
– İbn Həbib, "əl-Muhəbbər"
– İbn ət-Təqtəqi, "əl-Əsiyəli"
– əl-Ərbili, "Kəşf əl-Ğummə"

## On səkkizinci qeyd

## Hüseyn ibn Əli ibn Əbu Talibin səhabələrin övladlarından olan kürəkənləri

Gəlin mənimlə birlikdə Hüseynin övladlarını və ayrıca Əli ibn Hüseynin, habelə, onun iki bacısı Fatimə və Səkinənin vəziyyətini təhlil edək. Bəhs etdikdə görürük ki, onlar ataları şəhid Hüseynlə, habelə, öz qardaşları və əmilərinin oğulları ilə birlikdə Kərbəla hadisəsində iştirak etmişlər. İndi bundan bizə aydın olan budur ki:

1. Fatimənin əri Həsən əl-Musənnə ibn Həsən ibn Əli ibn Əbu Talib ağır yaralanmış halda o qətliamdan qurtulmuşdur. Fatimənin Həsəndən, Həsən əl-Musəlləs, Abdullah əl-Məhd və İbrahim əl-Ğimr adlı övladları olmuşdur. Onların hamısı hörmətli və alicənab olmuşdur. Həmçinin, ondan Zeynəb və Ummu Gülsüm adlı qızları da olmuşdur. Zeynəb əməvi xəlifəsi Vəlid ibn Abdul-Məlikə, Ummu Gülsüm da, öz dayısı oğlu Muhəmməd əl-Baqirə ərə getmişdir.

2. Həsən əl-Musənnə təqribən hicrətin 97-ci ilində vəfat etdikdən sonra, Mutarrif ləqəbi verilmiş Adbullah ibn Amr ibn Osman ibn Affan Fatimə ilə evlənmiş və ondan Muhəmməd əd-Dibac adlı oğlu və bir də qızı olmuşdur.

3. Səkinəyə gəlincə, onun əri Abdullah ibn Həsən ibn Əli ibn Əbu Talib idi. Bu həmin Abdullahdır ki, bəzi mənbələrdə onun adının Qasim, kunyəsinin isə Əbu Bəkr olduğu xəbər verilir. O, Taff hadisəsində Kərbəlada əhli-beyti ilə birlikdə şəhid olmuşdur.

4. Onun vəfatından sonra Musab ibn Zubeyr ibn əl-Əvvam Səkinə ilə evlənmiş və ondan Fatimə adlı qızı olmuşdur.

5. Musab hicrətin 71-ci ilində qəltə yetirildikdən sonra, o, Abdullah ibn Osman ibn Abdullah ibn Həkim ibn Hizama ərə getmiş və ondan Qərin ləqəbi verilmiş Osman və bir də Həkim adlı oğlu, habelə, Rəbihə adlı qızı olmuşdur.

6. O da vəfat etdikdən sonra, Səkinə Zeyd ibn Amr ibn Osman ibn Affana ərə getmişdir.

7. Zeyd vəfat etdikdən sonra, İbrahim ibn Abdurrəhman ibn Auf onunla evlənmiş, lakin üç aydan sonra onu boşamışdır.

8. Bundan sonra o, raşidi xəlifə Ömər ibn Abdulazizin qardaşı Əsbəğ ibn Abdulaziz ibn Mərvan ibn əl-Həkəmə ərə getmişdir. Az müddətdən sonra Əsbəğ də vəfat etmişdir. Bu deyilənlərdən aydın olur ki:

a) Böyük ehtimal ki, bu izdivaclarda Səkinənin vəlisi öz qardaşı Əli ibn Hüseyn – Allah onların hamısından razı qalsın! – olmuşdur.

b) Səkinənin həyat yoldaşlarından ikisi evlilikdən az müddət sonra öldürülmüş, biri öz əcəli ilə vəfat etmiş, biri bir neçə aydan sonra onu boşamışdır. Bütün bunlar onun bir neçə kərə ərdə olduğundan xəbər verir.

c) Diqqətlə təhlil et gör, Fatimənin və Səkinənin həyat yoldaşları səhabələrin oğullarından və nəvələrindən, ələlxüsus da, Osmanın, Zubeyrin və Abdurrəhman ibn Aufun – Allah onların hamısından razı qalsın! – nəslindən olmuşlar. Bu da, qəlbdə olan şəkkin qarşısını alır, şübhəni aradan qaldırır və beləliklə, aydın olur ki, onların arasında sevgi və məhəbbət olmuş, hətta bu nəvələrində də, özünü büruzə vermişdir.

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib رضي الله عنه

# Muhəmməd əl-Baqir

(hicrətin 56-cı ilində doğulmuş və 114-cü ilində vəfat etmişdir)

## Səhabələrdən olan şeyxləri

- Cabir ibn Abdullah əl-Ənsari رضي الله عنهما
- Abdullah ibn Abbas əl-Haşimi رضي الله عنهما
- Abdullah ibn Ömər ibn əl-Xattab رضي الله عنهما
- Ummu Sələmə (Hind əl-Məxzumiyyə) رضي الله عنها (möminlərin anası)
- Əbu Səid əl-Xudri əl-Ənsari رضي الله عنه
- Ənəs ibn Malik əl-Ənsari رضي الله عنه

### əl-Baqirin رحمه الله ibrətamiz sözlərindən biri

Əbu Cəfər əl-Baqirdən qılıncları bəzəmək barədə soruşulduqda, o demişdir: "Qılıncı bəzəmək olar. Çünki Əbu Bəkr əs-Siddiq رضي الله عنه onu bəzəyərdi." Nəhayət, yanındakılardan biri: "Sən ona Siddiq deyirsən?"– deyə etirazını bildirdikdə, o, dərhal yerindən qalxıb qibləyə tərəf üz tutmuş və demişdir: "Bəli, Siddiqdir! Bəli, Siddiqdir! Bəli, Siddiqdir! Kim ona Siddiq deməsə, Allah onun sözünü dünyada və axirətdə doğru saymasın!"

### əl-Baqir رحمه الله barədə belə deyilmişdir:

Dində sabit qalan imamdır; öz dövründə haşimilər arasında ən hörmətli şəxsiyyət sayılmış, əl-Baqir ləqəbi ilə tanınmışdır. əl-Baqir ərəblərin "bəqərəl-elm/elmi yarmış" sözündən götürülmüşdür, yəni elmi yarıb onun məğzini və gizlin olanını bilmişdir.

Doqquz hədis kitabında ondan 240-dan çox hədis rəvayət edilmişdir

### Anası

Ummu Abdullah bint Həsən ibn Əli ibn Əbu Talib رضي الله عنهما

### Zövcələrindən biri

Ummu Fərvə bint əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq رضي الله عنه

**Mənbələr:**
- İbn ət-Təqtəqi, "əl-Əsiyəli", səh.149
- əl-Mizzi, "Təhzib əl-Kəmal", 26/137
- əz-Zəhəbi, "Təzkira əl-Huffaz", 1/124
- İbn Anbə, "Umdə ət-Talib", səh.345
- əz-Zəhəbi, "Siyər Əlam ən-Nubələ", 4/402
- əl-Ərbili, "Kəşf əl-Ğummə", 2/360

## On doqquzuncu qeyd

## Muhəmməd əl-Baqir رضي الله عنه

Möhtərəm imam, Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib əl-Mədəni; atası Zeynulabidin; Muhəmməd əl-Baqir hicrətin 56-cı ilində anadan olmuşdur.

Elmin dərinliyinə varmağa qadir olduğuna görə ona əl-Baqir ləqəbi verilmişdir. “əl-Baqir”, yəni elmi yarıb onun məğzini və gizlin olanını bilmişdir.

Şeyxlərindən ən məşhurları və çoxluq təşkil edənləri, Cabir ibn Abdullah əl-Ənsari, Ənəs ibn Malik, Əbu Səid əl-Xudri, Abdullah ibn Ömər, Abdullah ibn Abbas رضي الله عنهم kimi möhtərəm səhabələr olmuşdur. Bütün bunlar bizə, əhli-beyt ilə səhabələr arasında həm elmi, həm də, ictimai bağlılıq olduğuna dair örnək verir.

Üstəlik, əsas hədis kitablarında Muhəmməd əl-Baqirdən 244-ə yaxın hədis rəvayət edilmişdir. Hələ təfsir və digər kitablarda varid olanları demirik.

Yuxarıda qeyd etdiyimiz kimi, Muhəmməd əl-Baqir, əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiqin رضي الله عنه qızı Ummu Fərva ilə evlənərək Əbu Bəkr əs-Siddiqin رضي الله عنه əhli-beyti ilə qohumluq əlaqəsi qurmuş və bu qadından onun Cəfər əs-Sadiq adlı oğlu olmuşdur. Muhəmməd əl-Baqir, babası Rəsulullahın ﷺ doğrudanışan Aişə رضي الله عنها ilə, habelə, atasının əmisi Həsən ibn Əlinin رضي الله عنهما, Abdurrəhman ibn Əbu Bəkr əs-Siddiqin رضي الله عنه qızı Həfsə ilə və bir də qardaşı oğlu İshaq ibn Abdullah ibn Əli ibn Hüseynin Əbu Bəkrin ailəsindən bir qızla evlənməsindən örnək götürmüşdür. Kaş, bu istəyi, qardaşlığı, məhəbbəti və vəfalılığı tərənnüm edən bir hekayə yazılardı!

Bu qeydi Ərbilinin əl-Baqirdən rəvayət etdiyi hədislə tamamlayırıq:

Əbu Cəfər əl-Baqirdən qılıncları bəzəmək barədə soruşulduqda, o demişdir: “Qılıncı bəzəmək olar. Çünki Əbu Bəkr əs-Siddiq رضي الله عنه onu bəzəyərdi.” Nəhayət, yanındakılardan biri: “Sən ona Siddiq deyirsən?”– deyə etirazını bildirdikdə, o, dərhal yerindən qalxıb qibləyə tərəf üz tutmuş və demişdir: “Bəli, Siddiqdir! Bəli, Siddiqdir! Bəli, Siddiqdir! Kim ona Siddiq deməsə, Allah onun sözünü dünyada və axirətdə doğru saymasın!” (Kəşf əl-Ğummə, 2/360).

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

# Həfsa bint Muhəmməd əd-Dibac

## Dörd raşidi xəlifənin, üstəlik, Zubeyrin və Talhənin qız nəvəsi

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu




Həfsa
əl-Əməviyyə


**Məxəzlər:**
- İbn Həbib "əl-Muhəbbər", 1/404
- İbn əl-Covzi, "əl-Mudhiş", 69
- əl-Bərri, "əl-Cövhərə fi Nəsəbin-Nəbi vəl-Aşərə", 1/273
- İbn Quteybə, "əl-Məarif", 200
- İbn Əbul-Hədid, "Şərh Nəhc əl-Bəlağə", 15/266


Bu izahedici şəkil əhli-beyt ilə səhabələr arasında olan ictimai əlaqələr şəbəkəsini, üstəlik, nəsəb və qohumluq əlaqələrinin bir-birinə keçməsini göstərir. Belə ki, Muhəmməd əd-Dibacın qızı Həfsanın, Əbu Bəkr əs-Siddiqin, Ömər ibn əl-Xattabın, Osman ibn Affanın, Əli ibn Əbu Talibin, Talhə ibn Ubeydullahın və Zubeyr ibn əl-Əvvamın – Allah onların hamısından razı qalsın! – nəvəsi olduğu açıq-aydın görünür. Bu da, əhli-beyt ilə səhabələr arasındakı ictimai əlaqənin sıx olduğunu və onların bir-biri ilə münasibət qurduğunu aydın şəkildə sübuta yetirir və onların qardaş olduğunu təsdiq edir.

Həfsanın, Cənnətlə müjdələnmiş on nəfərdən olan babalarıdır.

evlilik əlaqəsi

ata-övlad əlaqəsi

## İyirminci qeyd

### Dörd raşidi xəlifənin, üstəlik, Zubeyrin və Talhənin رضي الله عنهم qız nəvəsi Həfsa bint Muhəmməd əd-Dibac

Səhabələrin dövründən 150 il keçməsinə rəğmən əhli-beyt ilə səhabələrin nəvələri arasındakı qohumluq əlaqələri davam etmişdir. Bu qeyddə deyilənlərə dair dəlil-sübut sənin qarşındadır:

Bu, raşidi xəlifə və adil imam Osman ibn Affanın رضي الله عنه nəticəsi Həfsa bint Muhəmməd əd-Dibac ibn Abdullah əl-Mutarrif ibn Amrdır.

Həfsa, Rəsulullahın صلى الله عليه وآله وسلم, Əbu Bəkrin, Ömərin, Osmanın, Əlinin, Talhənin və Zubeyrin nəslindən رضي الله عنهم olan bir qadındır.

Həfsanın anası: Osman ibn Urva ibn Zubeyrin رضي الله عنه qızı Xədicədir.
Urvanın anası: Əbu Bəkrin رضي الله عنه qızı Əsmadır رضي الله عنها.
Həfsanın atası Muhəmməd əd-Dibacın anası: Hüseyn ibn Əlinin رضي الله عنهما qızı Fatimədir.
Fatimə bint Hüseynin رضي الله عنه anası: Talhə ibn Ubeydullahın رضي الله عنه qızı Ummu İshaqdır.
Abdullah ibn Amr ibn Osman ibn Affanın anası: Abdullah ibn Ömər ibn əl-Xattabın رضي الله عنه qızı Həfsadır. Ona Həmçinin, Zeynəb bint Abdullah ibn Ömər də deyirlər.

Əziz və hörmətli oxucu, bu heyrətamiz ictimai bağlılığın nə dərəcədə sıx olduğunu görürsənmi?
Məgər görmürsən ki, əhli-beytin və səhabələrin övladları hər bir ixtilafın üstündən keçərək yüksəkdə qərar tutmuşlar?

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu

# Möminlərin anaları

## ən hörmətli peyğəmbərin ﷺ zövcələri




**Bu nəsəblər,** tarixə, tərcümeyi-hallara və həyat-yollarına aid olan kitabların hamısında mövcuddur. Yalnız Cuveyriya bint əl-Harisin tərcümeyi-halında ixtilaf edilmişdir. Bəziləri onun Qahtandan, digərləri isə Qəməə ibn İlyas ibn Mudar ibn Adnəndən olduğunu söyləmişlər. Nəsil tarixini araşdıran tarixçilərin əksəriyyəti birinci rəyi dəstəkləyirlər.

Peyğəmbərin zövcəsi — Peyğəmbərin atası — bir başa olan ata-övlad əlaqəsi — bir başa olmayan ata-övlad əlaqəsi (Babalardan biri ilə nəvələrdən biri arasında)

## İyirmi birinci qeyd

## Möminlərin anaları – ən hörmətli peyğəmbərin ﷺ zövcələri

Bu şəkildə peyğəmbər nəsəbinin sütunu, üstəlik, möminlərin analarının, ən hörmətli peyğəmbərin ﷺ zövcələrinin onunla olan qohumluq əlaqəsi göstərilir. Bu sütunda nəsəbcə Peyğəmbərə ﷺ daha yaxın olanlarından başlayaraq, möminlərin on bir anasının adı ardıcıl zikr edilir. Onların həyat-yoluna nəzər salsaq, aşağıdakı nəticələri əldə etmək olar:

1. Cuveyriya bint əl-Haris əl-Mustələqiyyə رضي الله عنها bu sütundan kənarda yer alır. Çünki daha doğru rəyə görə o, Qahtan qəbiləsindəndir. Eləcə də, Safiyyə bint Huyey ibn Əxtab da, bu sütundan kənarda yer alır. Çünki o, İbrahimin عليه السلام oğlu İshaqın عليه السلام nəslindəndir.

2. Bu qadınların hamısı Peyğəmbərin ﷺ vəfatından sonra dünyadan köçmüşlər. Yalnız dünyanın ən fəzilətli qadınlarından biri Xədicədən رضي الله عنها və Zeynəb bint Xuzeymədən رضي الله عنها başqa.

3. Onların hamısı Bəqi qəbiristanlığında dəfn edilmişdir. Yalnız Xədicədən رضي الله عنها və Məymunədən رضي الله عنها başqa. Belə ki, Xədicə رضي الله عنها Həcunda, Məymunə isə Sərifdə dəfn edilmişdir.

4. Peyğəmbərin ﷺ vəfatından sonra ona ilk qovuşmuş qadını Zeynəb bint Cəhş رضي الله عنها olmuşdur. O, hicrətin 20-ci ilində vəfat etmişdir.

Zeynəb öz anası Umeyyə bint Abdulmuttəlib tərəfdən Peyğəmbərə ﷺ qohum olmuşdur. Çünki Umeyyə Peyğəmbərin ﷺ bibisi olmuşdur.

5. Aişə رضي الله عنها (2210), Ummu Sələmə رضي الله عنها (378), Məymunə رضي الله عنها (78), Ummu Həbibə رضي الله عنها (65), Həfsa رضي الله عنها (60), Zeynəb bint Cəhş رضي الله عنها (11), Safiyyə رضي الله عنها (10), Cuveyriya رضي الله عنها (7) və Səudə رضي الله عنها (5) hədis rəvayət etmişdir.

6. Bu qadınlar arasında yalnız Aişə رضي الله عنها bakirə olduğu halda Peyğəmbərə ﷺ ərə getmişdir.

7. Onların ən son vəfat edəni Ummu Sələmədir رضي الله عنها. O, hicrətin 61-ci ilində vəfat etmişdir. Həmçinin, Peyğəmbərin ﷺ evləndiyi son qadını Məymunədir رضي الله عنها. Peyğəmbər ﷺ onunla hicrətin 7-ci ilində evlənmişdir.

Bu, bizim ən hörmətli xanımlarımızın və analarımızın – möminlərin analarının nəsəbidir. Onların nəsəbinin şərəfi, özlərinin həyat yoldaşı Peyğəmbərin ﷺ nəsəbinin şərəfinə qarışmışdır.

Əhli-beyt və səhabələr
sevgi və qohumluq əlaqələri

Əhli-beyt və səhabələr adına
xeyriyyə fondu

# Cənnətlə müjdələnmiş on nəfər




Bu nəsəblər, tarixə, tərcümeyi-hallara və həyat-yollarına aid olan kitabların hamısında mövcuddur.

## İyirmi ikinci qeyd

### Cənnətlə müjdələnmiş on nəfər

Bu qeyd, şərəfli peyğəmbər nəsəbini və Cənnətlə müjdələnmiş on nəfərin bu nəsəbdə onunla birləşdiyi məqamları ehtiva edir. Bu on nəfərin Cənnətlə müjdələnməsi barədə çoxlu hədislər varid olduğu hamıya bəllidir. Bu hədislərdən birini imam ət-Tirmizi "Sunən" əsərində (5/647) 3747 nömrəli hədisdə, Abdurrəhman ibn Aufdan ﷺ Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişdir: "Əbu Bəkr cənnətlikdir, Ömər cənnətlikdir, Osman cənnətlikdir, Əli cənnətlikdir, Talhə cənnətlikdir, Zubeyr cənnətlikdir, Abdurrəhman ibn Auf cənnətlikdir, Səd (ibn Əbu Vəqqas) cənnətlikdir, Səid (ibn Zeyd) cənnətlikdir və Əbu Ubeydə ibn əl-Cərrah cənnətlikdir."

Yeri gəlmişkən aşağıdakıları təhlil edək:

1. Onlar Peyğəmbərin ﷺ dəvətində ona yaxın olduqları kimi, nəsəbcə də, ona yaxın idilər.

2. Bu on nəfərin peyğəmbəri və dostu Muhəmməd ﷺ, babaları isə İbrahimin عليه السلام oğlu İsmail عليه السلام olmuşdur .

3. Bu on nəfərdən birinin nəsəbinə tənə vurmaq, şərəfli peyğəmbər nəsəbinə tənə vurmaq deməkdir.

4. Bu nəsəbdə olanların ikisi – Səd ibn Əbu Vəqqas və Abdurrəhman ibn Auf رضي الله عنهما, Peyğəmbərin ﷺ dayılarından – Zuhra oğullarındandır.

5. Bu nəsəbdə olanların ikisi – Əbu Bəkr əs-Siddiq və əmisi oğlu Talhə رضي الله عنهما Teym oğullarındandır.

6. Bu nəsəbdə olanların ikisi – əmiuşaqları – Ömər və Səid ibn Zeyd رضي الله عنهما Ədiy oğullarındandır.

7. Əbu Bəkr əs-Siddiq bu on nəfər arasında yeganə səhabədir ki, onun atası da, İslamı qəbul etmişdir.

8. Dörd raşidi xəlifə, habelə, Ömərdən رضي الله عنه sonra xəlifəliyə namizəd olan şuranın altı üzvü məhz bu on nəfərdəndir.

9. Bu on nəfər arasında dünyadan köçən ilk səhabə Əbu Bəkr əs-Siddiq رضي الله عنه, sonuncusu isə Səd ibn Əbu Vəqqas رضي الله عنه olmuşdur.

10. Ömər, Osman, Əli, Talhə və Zubeyr رضي الله عنهم qətlə yetirilməklə şəhid olmuşlar.

11. Bu on nəfərin hamısı iştirak etməklə və ya Peyğəmbərin ﷺ qərarı ilə Bədr əhlindən sayılır. Onlar, həmçinin, "Ridvan" beyətində də, iştirak etmişlər. Yalnız Osmandan رضي الله عنه başqa. Bu beyət elə Osmandan رضي الله عنه ötrü edilmişdir.

# Raşidi xəlifələrin ﷺ xilafətinin axır dönəminədək baş vermiş, İslam dövlətinin fəthləri




- müsəlmanların bir qismi dindən döndüyü bir vaxtda, Ərəb yarımadasındakı müsəlmanlar xəlifə Əbu Bəkr əs-Siddiqin ﷺ əli ilə birləşmişlər.
- Əbu Bəkr əs-Siddiqin ﷺ xilafəti dövründə olmuş fəthlər.
- Ömərin ﷺ xilafəti dövründə olmuş fəthlər.
- Osmanın ﷺ xilafəti dövründə olmuş fəthlər.
- Əli ibn Əbu Talibin ﷺ xilafəti dövründə olmuş fəthlər.
- Fəthlərdəki sərkərdələr ﷺ.
- Bu döyüşdə Həsən, Hüseyn, Abdullah ibn Ömər, Abdullah ibn Abbas, Abdullah ibn əz-Zubeyr və Abdullah ibn Amr ibn əl-As – Allah onların hamısından razı qalsın! – iştirak etmişlər.

Bu fəthlər tarix kitablarında bir çox ayrı-ayrı isnadlarla zikr edilmişdir. Bu məlumatları nəql edən mənbələrin ən əhəmiyyətli sayılanları bunlardır:
- Muhəmməd ibn Cərir ət-Təbəri, "Tarix ət-Təbəri"
- əz-Zəhəbi, "Tarix əl-İslam"
- İbn Kəsir, "əl-Bidayə vən-Nihayə"
- İbn Əsir, "əl-Kamil fit-Tarix"
- İbn əl-Covzi, "əl-Muntəzam"
- əl-Məsudi, "Muruc əz-Zəhəb"
- Yaqubi, "Tarix"

## İyirmi üçüncü qeyd

## Raşidi xəlifələrin ﷺ xilafətinin axır dönəminədək baş vermiş, İslam dövlətinin fəthləri

Bu xəritə raşidi xəlifələrin fəthlərinin həcmini və İslam xilafətinin 30 il ərzində sürətlə genişlənməsini göstərir. Fəth edilmiş torpaqlarda yaşayan xalqlar İslam dinini və onun dilini qəbul etmiş, hətta, onların bir çoxu bu fəthlərdə iştirak etmişlər. Əhli-beyt və səhabələr torpaqları və məmləkətləri fəth etməmişdən qabaq insanların qəlblərini fəth etmişdilər.

Sən o dövrdəki döyüş sursatları, habelə, bir yerdən başqa bir yerə yürüş etməyin çətinliyi barədə düşün və bunları o fəthlərin həcmi ilə müqayisə et ki, əhli-beytin və səhabələrin nə dərəcədə ixlaslı və şücaətkar olduqlarını, üstəlik, Allahın onları doğru yola yönəltdiyini və onlara zəfər bəxş etməklə kömək etdiyini başa düşəsən. Axı Allah onlara belə vəd etmişdir: “Əgər siz Allaha (Onun dininə) kömək etsəniz, O da sizə kömək edər və ayaqlarınızı möhkəmlədər” (Muhəmməd, 7).

Bu xəritədən o da aydın olur ki, bu fəthlərdəki sərkərdələrin böyük əksəriyyəti səhabələr olmuşlar. Onlar İslam dinini yaymaq və aləmlərin Rəbbinin şəriətini yer üzündə bərqərar etmək üçün məşriqdən məğribədək yol qət etmişlər.

Gəl, peyğəmbər ailəsinin bu fəthlərdə iştirak etdiyinə dair sənə bir neçə misal göstərək:

İbn Abdulbərr əl-Əndəlusi demişdir: “Deyirlər ki, Abbas ibn Abdulmuttəlib oğullarının qəbirləri kimi bir-birindən çox uzaqda yerləşən qəbirlər görünməmişdir. Hərçənd anaları Ummu Fədl onları bir evdə dünyaya gətirmiş, lakin Fədl Əcnadeyndə şəhid olmuş, Məbəd və Abdurrəhman Afrikada, Abdullah Taifdə, Ubeydullah Yəməndə, Qəsəm də Səmərqənddə vəfat etmişdir. Bir çoxu da, Yənbuda anginadan vəfat etmişlər.” (əl-İstiyab, 1/59)

Bu xəritədən o da aydın olur ki, Həsən, Hüseyn, Abdullah ibn Ömər, Abdullah ibn Abbas, Abdullah ibn əz-Zubeyr və Abdullah ibn Amr ibn əl-As – Allah onların hamısından razı qalsın! – hicrətin 26-cı ilində, qərbdə Afrikanın və Subeytilənin, habelə, hicrətin 30-cu ilində, şərqdə Corcanın və Təmisənin fəthində iştirak etmişlər.

Əhli-beyt və səhabələr sevgi və qohumluq əlaqələri

# İki şərəfi özündə cəm edən – həm qohum, həm də, səhabə olmuş kimsələr

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu




- Səhabə olmasında ixtilaf edilmiş kimsələr
- Nəslində ixtilaf edilmiş kimsələr
- Əhli-beytdən olub-olmamasında ixtilaf edilmiş kimsələr
- Müsəlman olmasında ixtilaf edilmiş kimsələr
- Peyğəmbərin ﷺ oğulları
- Peyğəmbərin ﷺ qızları
- Peyğəmbərin ﷺ zövcələri – möminlərin anaları
- Peyğəmbərin ﷺ əmilərindən İslamı qəbul edən kimsələr
- İslamı qəbul etməmiş kimsələr
- Peyğəmbərin ﷺ bibiləri
- Kişilər
- Qadınlar
- Nəsli davam etməyən kimsələr
- Fərd ilə onun ulu babası arasında olan əlaqə

Safiyyə bint Huyey ibn Əxtəb İshaqın عليه السلام nəslindəndir.

* Cuveyriya bint əl-Harisin tərcümeyi-halında ixtilaf edilmişdir. Bəziləri onun Qahtandan, digərləri isə Qəməə ibn İlyas ibn Mudar ibn Adnəndən olduğunu söyləmişlər. Nəsil tarixini araşdıran tarixçilərin əksəriyyəti birinci rəyi dəstəkləyirlər.

* Bu nəsəblər, tarixə, tərcümeyi-hallara və həyat-yollarına aid olan kitabların hamısında mövcuddur. İxtilaflı məsələləri isə bu şəcərənin rəmzlərində və açarlarında izah etmişik.

Bu möhtərəm adlar Peyğəmbərin – səllallahu aleyhi və alə alihi və səlləm – dövründə yaşamış və ona iman gətirmiş möhtərəm peyğəmbər ailəsinin bəzi üzvlərinin adlarıdır. Bunlar həm qohum, həm də, səhabə olmaq şərəfini özlərində cəm etmişlər.

## İyirmi dördüncü qeyd

## İki şərəfi özündə cəm edən – həm qohum, həm də, səhabə olmuş kimsələr

Möhtərəm oxucu, sənə, həm qohum, həm də, səhabə olmaq şərəfini özündə cəm etmiş yüzdən çox şəxsiyyət adı təqdim edirik. Bunlar Peyğəmbərə ﷺ həm nəsəbcə yaxın olmaq, həm də onun səhabəsi olmaq və son nəfəslərinədək onun yolunu tutub getmək şərəfinə nail olmuş ən fəzilətli insanlardır.

Möhtərəm oxucu, sənə məlumdur ki, peyğəmbər nəsəbi fəzilətli və tərifəlayiq bir nəsəbdir. Burada zikr edilən şəxsiyyətlərin nəsəbi Peyğəmbər ﷺ ilə, onun babası Haşimdə birləşir. Bunlar o kəslərdir ki, onlara sədəqə götürmək haram edilmişdir. Həmçinin, Peyğəmbərin ﷺ zövcələri, möminlərin anaları da, bu nəsəbə aiddir – Allah onların hamısından razı qalsın.

Bizim o ən fəzilətli insanlara olan sevgimizin əlaməti, onların adlarını aşkar etmək, onlardan razı qalmaq, üstəlik, onların fəzilətini və qədrini bilməkdir.

Bu şəxsiyyətlərə, həmçinin, səhabə də deyilir. Belə ki, onlar Peyğəmbəri ﷺ görüb ona iman gətirmiş və müsəlman olduqları halda dünyadan köçmüşlər.

Biz bu qeyddə Peyğəmbərin ﷺ qızlarını, zövcələrini, əmilərini və oğullarını ayrı-ayrılıqda zikr etmişik. Habelə, kişiləri ayrı, qadınları da, ayrı, eləcə də, əhli-beytdən olduğu barədə ixtilaf edilmiş kimsələri ayrı, əhli-beytdən olması sübuta yetirilmiş kimsələri də ayrı zikr etmişik.

Allah bizə də, sizə də, gözəl tərzdə onların yolunu tutub getməyi nəsib etsin və bizi onlarla birlikdə ən ali Firdovs cənnətinə daxil etsin... Amin!